## Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının hazırlanmasına başlanılıb

**Prezident İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycandan olan ziyalılarla görüşü zamanı irəli sürdüyü Qayıdış Konsepsiyası ilə bağlı Qərbi Azərbaycan İcmasında dərhal işə başlanılıb.**

"Report" xəbər verir ki, bunu Qərbi Azərbaycan İcmasının mətbuat katibi Ülviyyə Zülfiqar bildirib.

Qayıdış Konsepsiyanın hazırlanması istiqamətində iş aparıldığını söyləyən mətbuat katibi deyib: "İcma olaraq bu Konsepsiyanı vaxtında yekunlaşırmağa çalışacağıq. Konsepsiya hazır olandan sonra Qərbi Azərbaycan İcması fəaliyyətini bu sənədə əsasən davam etdirəcək".

## Fransa səfiri Türkiyə XİN-ə çağırılıb




**Fransanın Türkiyədəki səfiri Herve Maqro bu gün Xarici İşlər Nazirliyinə çağırılıb.**

Bu barədə APA-nın İstanbul müxbirinə diplomatik mənbələrdən bildirilib.

Səfirin Nazirliyə çağırılmasının səbəbinin Fransada PKK/PYD/YPG dairələrinin Türkiyəyə qarşı başlatdığı qara təbliğat olduğu qeyd edilib.

Nazirlik səfirə bununla bağlı narazılığını bildirib. Məsələ ilə bağlı Türkiyənin Parisdəki səfirinə də müvafiq təlimat və tapşırıqlar verilib.


№ 237 (5758), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 27 dekabr 2022-ci il (çərşənbə axşamı)




## Hər hansı bir narahatlıq olamayacaq

### Bayram günlərində Bakıda avtobuslar problemsiz işləyəcək

**Bir neçə gündən sonra ölkəmizdə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı qeyd ediləcək. Bayram günlərində paytaxt yollarında əhalinin sıx hərəkət edəcəyi ehtimal olunur.**

Bəs, bu günlərdə ictimai nəqliyyatın hərəkəti necə təşkil ediləcək? Bakı Nəqliyyat Agentliyi (BNA) avtobusların hərəkət qrafikində hər hansı bir dəyişiklik edəcəkmi?

Məsələ ilə bağlı BNA-nın Sərnişindaşıma fəaliyyətinin tənzimlənməsi şöbəsinin müdiri Vüqar Məmmədzadə Trend-ə bildirib ki, ümumilikdə, iş və ya qeyri- iş günlərində müntəzəm marşrut xətləri üzrə gündəlik reysə çıxan avtobusların sayı sərnişin tələbatına uyğun tənzimlənir.

"Bu tətil günlərində də sərnişindaşımalar bu qaydalar əsasında tənzimlənəcək. Əhalinin bayram tətili günlərində ictimai nəqliyyatdan rahat istifadəsində hər hansı bir narahatlıq olamayacaq. Adətən bayram günlərində əhali dincəlmək üçün daha çox şəhərdən kənara getdiyi üçün marşrut şəbəkəsində sərnişin sıxlığı olmur", - deyə şöbə müdiri bildirib.



## İsrail Prezidenti İlham Əliyevi təbrik edib

### İsxak Hersoq: "Biz Azərbaycan səfirliyinin açılmasını və İsrailə səfərinizi səbirsizliklə gözləyirik"

**"Biz Azərbaycan səfirliyinin açılmasını və İsrailə səfərinizi səbirsizliklə gözləyirik".**

Bu fikir İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda yer alıb.

Mətndə deyilir:

"Hörmətli Prezident Əliyev.

Doğum gününüz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırır və qarşıdan gələn ildə Sizə xoşbəxtlik və cansağlığı arzulayıram.

(səh.2)

## Putindən etiraf

### MDB üzvləri arasında fikir ayrılıqları yaranır



**Dekabrın 26-da Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının iclası keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib. Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

(səh.2)

# Vardanyan Kremlin planlarını icra edir

### Xankəndi sakinlərini faktiki olaraq girov saxlayırlar





**Dekabrın 25-də separatçı rejim Xankəndi şəhərində yenidən mitinq təşkil ediblər. Xankəndidə özünə yuva salmış və özünü "nazir" elan etmiş milyarder Vardanyan "Artsax"ın Azərbaycana tabe olmayacağını deyib:**

"Biz onlara qarşı durmalıyıq, gücümüzlə müqavimət göstərməliyik". Üstəlik, qatil Robert Koçaryanın vaxtilə dediyi "azərbaycanlılar və ermənilər bir yerdə yaşaya bilməzlər" bədnam və faşist tezisi yenidən təkrarlanıb. Şuşa-Xankəndi yolunda dinc aksiya keçirən QHT fəallarına qarşı da təhdidlər səsləndirilib. Vurğulanıb ki, "Qarabağla Ermənistan arasında quru yolun fasiləsiz işləməsi heç bir danışıqlar və sövdələşmə mövzusu ola bilməz".

(səh.3)

# Yerli kanallara baxanların sayı azalıb

### Ən azı 10 min nəfərin rəyi öyrənilməlidir



**Azərbaycan kanallarının ilkin reytinqi açıqlanıb.**

Bu barədə Audiovizual Şuranın sədri İsmət Səttarov 2022-ci ilin yekunlarına həsr olunmuş mətbuat konfransında məlumat verib. O bildirib ki, ötən həftə yerli kanallara 5 milyon 251 min adam baxıb: "Ortalama izləmə müddəti 4 saat olub. Türk kanallarına isə 3 milyon 500 min adam baxıb. Onların ortalama baxışı 2 saat olub.

(səh.6)



## Sülhməramlılara aid daha 4 avtomobil Laçın yolundan keçib

**Azərbaycanın qeyri-hökumət təşkilatlarının (QHT) nümayəndələrinin Qarabağda Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyəti zonasında keçirilən etiraz aksiyası on beşinci gündür ki, davam edir.**

Trend-in Şuşaya ezam olunmuş əməkdaşı xəbər verir ki, Şuşa-Xankəndi yolundan növbəti dəfə sülhməramlılara aid 4 təminat maşını keçib.

*Qeyd edək ki, bu gün ümumilikdə 11 maşın Laçın yolundan keçib.*

## Laçın yolunda təkcə yüklər deyil...

### Oradan keçən mülki şəxslərə də diqqət yetirilməlidir



**"Laçın yolunda aksiyanın başlanmasından sonra Bakını bombalamaq çağırışı edən rus ekspertləri "Vaqner"in Qarabağa göndərilməsi təkliflərini də gündəmə gətirir".**

Bu barədə "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, Milli Təhlükəsizliyin İctimai Tətbiqi Problemlərinin Tətqiqi Mərkəzinin rəhbəri, istefada olan polkovnik Aleksandr Jilin Qarabağdakı separatçı-terrorçulara başçılıq etmək istəyən Ruben Vardanyana, eləcə də erməni diasporuna iki tövsiyə verib...

(səh.2)

## Xəstəlikdən ölən olmayıb

### Son sutkada 15 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 15 yeni yoluxma faktı qeydə alınıb, 14 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, xəstəlikdən ölən olmayıb.

İndiyədək ölkədə ümumilikdə 825 980 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 815 409 nəfər müalicə olunaraq sağalıb, hazırda 565 aktiv xəstə var. Bu günə qədər 10 006 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 734, bu günə qədər isə ümumilikdə 7 421 167 test icra olunub.*



## "Azərbaycan torpaqlarının necə işğal olunduğu bəllidir"

Alqış Musayev: "Prezident İlham Əliyev daha qüdrətli Azərbaycanla, ümumtürk coğrafiyası ilə bağlı tarixi yaddaşın bərpası istiqamətində çox böyük işlər görür"

(səh.4)



## "Xocasən" stansiyası paytaxtda sıxlığı aradan qaldıracaqmı?

Ekspert hesab edir ki, tıxac problemini həll etmək üçün sürətli icra oluna biləcək layihələrə üstünlük vermək lazımdır

(səh.3)



# İsrail Prezidenti İlham Əliyevi təbrik edib

## İsxak Hersoq: “Biz Azərbaycan səfirliyinin açılmasını və İsrailə səfərinizi səbirsizliklə gözləyirik”

**”Biz Azərbaycan səfirliyinin açılmasını və İsrailə səfərinizi səbirsizliklə gözləyirik”.**

Bu fikir İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda yer alıb.

Mətndə deyilir:

”Hörmətli Prezident Əliyev.

Doğum gününüz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırır və qarşıdan gələn ildə Sizə xoşbəxtlik və cansağlığı arzulayıram.

Bu fürsətdən istifadə edərək, Azərbaycanın illər boyu qoruyub saxladığı adət-ənənə və dəyərlərə heyran olduğumu bildirmək istəyirəm. Azərbaycan müsəlman dünyasında yaranan ilk demokratik respublikadır və möhtəşəm ölkəniz regional liderdir.

Azərbaycanda müxtəlif dinlərə və mədəniyyətlərə mənsub olan vətəndaşların harmoniya və qarşılıqlı hörmət şəraitində birgəyaşayışı məni xüsusilə heyran edir. Ölkəniz bütün dinlərin nümayəndələrinin sülh və əməkdaşlıq şəraitində birgə yaşamasının dünyaya parlaq nümunəsidir. Novruz, Hanuka, Milad və Yeni İl bayramlarının qeyd olunması bu inklüzivliyə və anlaşmaya sadiqliyin sübutudur.

Mən, həmçinin Zati-aliniz və hökumətiniz tərəfindən Azərbaycandakı yəhudi icmasına göstərilən dəstəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Siz İsrail Dövlətinin və yəhudi xalqının dostusunuz, biz Azərbaycanın səfirliyinin açılmasını və İsrailə səfərinizi səmimi münasibətlərimizin daha da möhkəmlənməsi baxımından səbirsizliklə gözləyirik.

Zati-aliləri, bu il doğum gününüzün nur və firavanlıq rəmzi olan Hanuka bayramı günlərinə təsadüf etməsi xüsusilə əlamətdardır. Bu münasibətlə bir daha səmimi təbriklərimi və qarşıdan gələn ildə xoşbəxtlik və cansağlığı diləklərimi qəbul etməyinizi xahiş edirəm”.

# Putindən etiraf

## MDB üzvləri arasında fikir ayrılıqları yaranır



**Dünən Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının iclası keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib. Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Rusiya Prezidenti Vladimir Putin MDB liderlərinin qeyri-forma sammitində çıxışında bildirib ki, təhdidlər və çağırışlar artır, MDB üzvləri arasında da fikir ayrılıqları yaranır, lakin Birlik ölkələri arasında onları həll etmək hazırlığı var:

”Təəssüf ki, bu sahədə ilk növbədə kənardan gələn çağırışlar və təhdidlər ildən-ilə artır. Təəssüf ki, biz etiraf etməliyik ki, Birliyə üzv dövlətlər arasında da fikir ayrılıqları yaranır. Lakin əsas odur ki, əməkdaşlıq etməyə hazırıq. Hər hansı problemli məsələlər ortaya çıxsa belə, biz onları özümüz birlikdə bir-birimizə yoldaşlıq yardımı göstərərək həll etməyə çalışırıq”, deyə Rusiya Prezidenti vurğulayıb.

**Putin onu da bildirib ki, MDB ölkələri arasında əməkdaşlıq uğurla davam edir:**

”Son bir ildə dövlətlərimizin çoxşaxəli qarşılıqlı əlaqəsi bütövlükdə uğurla inkişaf edib. Bunu bizim aramızda, Rusiya ilə bütün MDB ölkələri arasında ticarət dövriyyəsinin davamlı artımı da təsdiqləyir. Yanvar-oktyabrda ticarət dövriyyəsinin həcmi 6,6% artaraq 81,5 milyard dollara çatıb. Bu ilin sonuna qədər onun 100 milyard dollara çatacağını gözləməyə əsas var. Sonda bir daha əmin olduğumu bildirmək istərdim ki, MDB çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi ölkələrimizin xalqlarının əsas maraqlarına cavab verir, Birlik dövlətlərinin sosial-iqtisadi inkişafı problemlərinin daha səmərəli həllinə, regional təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsinə kömək edir”, deyə Putin qeyd edib.

# İranın Avropaya nəfəsliyini kəsməliyik

## Qarabağda Azərbaycan əleyhinə iş aparan terrorçu qruplara İranın dəstəyi açıq-aşkardır

**Xankəndidə separatçıların mitinqində farsca plakat da qaldırılıb. İddialara görə, plakat açanlar Qarabağa bir müddət əvvəl İran tərəfindən göndərilən SEPAH-ın hərbi təlimatçılarıdır.**

İranın bütün istiqamətlərdə Azərbaycana qarşı müharibə apardığını düşünən ekspertlərin fikrincə, separatçı erməniləri təhrik edən, onları təlimatlandıranlar arasında Rusiya ilə yanaşı, İran da yer almaqdadır.

Politoloq Məhəmməd Əsədullazadə də hesab edir ki, Azərbaycana qarşı İranın hibrid müharibəsi davam edir. Analitikə görə, rəsmi Bakı Güney Azərbaycan məsələsini daim gündəmdə saxlamalı,



güneyli fəallara ciddi dəstək verilməlidir: ”Cənubi Azərbaycandan olan fəalların xaricdə diasporamız ətrafında sıx birləşməsi üçün işlər həyata keçirilməlidir. İranın teokratik hökuməti Azərbaycanın təhlükəsizliyi üçün ciddi təhdiddir. Azərbaycan SEPAH-ı terror təşkilatı kimi rəsmən tanımalıdır. Qarabağda Azərbaycan əleyhinə iş aparan terrorçu qruplara İranın dəstəyi açıq-aşkardır. Türkiyənin də yardımı ilə İranın Avropaya nəfəsliyini kəsməliyik. Gürcüstanı da bu prosesə qoşaraq İranı iqtisadi blokadaya almaq lazımdır. Zəngəzur dəhlizini açaraq İranı süni sərhədlərlə qonşu edilən Ermənistanla da münasibətlərdən məhrum etməliyik. İsrail və ABŞ növbəti aylarda İrana qarşı hərbi əməliyyatlara başlayarsa, Yaxın Şərqdə və bizim regionumuzda sülhün və təhlükəsizliyin təməli qoyulacaq”.

**İsmayıl**

# Laçın yolunda etiraz aksiyası davam edir

## Erməni yalanı növbəti dəfə ifşa olundu

**Azərbaycanın qeyri-hökumət təşkilatları (QHT) nümayəndələrinin Qarabağda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi zonada keçirdiyi etiraz aksiyası artıq on beşinci gündür ki, davam edir.**




Trend-in Şuşaya ezam olunan əməkdaşı xəbər verir ki, hazırda da aksiya iştirakçıları etirazlarını davam etdirirlər, müxtəlif şüarlar səsləndirirlər.

Qeyd edək ki, bir sıra erməni KİV-də guya azərbaycanlıların keçirdiyi dinc aksiyasının bitdiyi barədə məlumatlar yayılıb.

*Xatırladaq ki, dekabrın 12-dən etibarən azərbaycanlı eko fəallar, ictimaiyyət nümayəndələri sülhməramlıların postu yaxınlığında etiraz aksiyası keçirirlər. Aksiyada etiraz edənlərin əsas tələbləri Rusiya sülhməramlılarının komandan Andrey Volkovun gəlməsi, azərbaycanlı mütəxəssislərin monitorinq aparılması üçün lazımi şərait yaradılması, ermənilərin Azərbaycan torpaqlarında ekoloji terrora son qoyulması, Ermənistanla sərhəddə Laçın istiqamətində ayrıca sərhəd və gömrük nəzarəti postlarının yaradılması, Azərbaycan ərazisinə qanunsuz silah daşınmasının qarşısının alınmasıdır.*

# Laçın yolunda təkcə yüklər deyil...

## Oradan keçən mülki şəxslərə də diqqət yetirilməlidir




**“Laçın yolunda aksiyanın başlanmasından sonra Bakını bombalamaq çağırışı edən rus ekspertləri ”Vaqner”in Qarabağa göndərilməsi təkliflərini də gündəmə gətirir”.**

Bu barədə ”Şərq”ə siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, Milli Təhlükəsizliyin İctimai Tətbiqi Problemlərinin Tətqiqi Mərkəzinin rəhbəri, istefada olan polkovnik Aleksandr Jilin Qarabağdakı separatçı-terrorçulara başçılıq etmək istəyən Ruben Vardanyana, eləcə də erməni diasporuna iki tövsiyə verib: ”Birinci tövsiyə SEPAH-dan dəstək almaqdır. Vardanyanın timsalında ”Artsax” rəhbərliyi Tehrandan hərbi kontingentin gəlməsini istəyə, SEPAH-ın real hərbi dəstəyini əldə edə bilər. İkincisi, ”Vaqner”in Qarabağa gətirilməsidir. Zəngin erməni diasporu bir neçə özəl hərbi şirkətə müraciət edə, ”Artsax ordusu”na dəstəyi təmin edə bilər. Bunun ”Vaqner” olması da mümkündür. İstisna deyil ki, ehtiyatda olan polkovnik bununla Rusiya özəl hərbi şirkətlərinin ictimai lobbiçiliyini də aparır. Zəngin ermənilər özəl şirkətləri separatçıların ”müdafiəsi”nə cəlb etmək təklifini dəyərləndirə, Xankəndidəki mitinqdə Bakıya ”müharibə elan” edən milyarder Vardanyanın özü də bu işə pul xərcləyə bilər. Bu baxımdan ”Vaqner” tipli özəl hərbi şirkətlərin bölgəyə ”sülhməramlı” formasında, yaxud ”mülki geyim”də hərbçilər göndərə biləcəyi ehtimalı da nəzərə alınmalıdır. Laçın yolunda daşınan yüklərlə yanaşı, keçən şəxslərə də diqqət yetirilməlidir”.

**İsmayıl**

# Bakıda 30 məktəbin direktoru işdən çıxarılıb



**2022-ci təqvim ili ərzində BŞTİ-nin tabeliyində olan bir sıra ümumi təhsil müəssisələrinə yeni direktor təyinatları həyata keçirilib, bəzi direktorların əmək müqaviləsinə xitam verilib, həmçinin bir sıra məktəb direktorlarının iş yeri dəyişdirilib.**

Axşam.az xəbər verir ki, BŞTİ-nin tabeliyindəki təhsil müəssisələrinə 13 nəfər direktor vəzifəsinə təyin olunub, 24 direktorun iş yeri dəyişdirilib.

172 məktəb direktorunun müddətli əmək müqaviləsinin müddəti uzadılıb. Çalışmanın yaş həddinə çatmış 43 direktorla müddətli əmək müqaviləsi bağlanıb. Ümumilikdə 30 məktəb direktoru ilə bağlanmış əmək müqaviləsinə müxtəlif əsaslarla xitam verilib.

**”Efirdə türk dilindən tərcümə ilə bağlı qanuna dəyişiklik təklif ediləcək”. Bunu Audiovizual Şuranın sədri İsmət Səttarov 2022-ci ilin yekunlarına həsr olunmuş mətbuat konfransında deyib. O bildirib ki, bunlardan biri tərcümə ilə bağlıdır:**

”Praktikadan görürük ki, radio və televiziyalara türkiyəli ekspertlər qoşulur və onların canlı olaraq tərcüməsi mümkün olmur. Təklif edəcəyik ki, bununla bağlı qanuna dəyişiklik edilsin”.




# Xəbərdarlıq edildi

## Lisenziya almadan fəaliyyət göstərən kabel yayımçılarının işi dayandırılacaq

**“Audiovizual yayımçıların borcu yoxdur”**

İsmət Səttarov deyib ki, bu günə qədər audiovizual yayımçıların borcu yoxdur. O bildirib ki, ötən il kanallara ayrılan vəsait hesabına bütün borclar ödənilib. Şura sədri bu il rekord sayda radionun açıldığını da diqqətə çatdırıb: ”2022-ci ildə 4 yeni radio açılıb. Bu, rekord rəqəmdir. Hazırda onların sayı 15-dir”.

**Azərbaycan kanallarının ilkin reytinqi açıqlanıb**

Audiovizual Şuranın sədri bildirib ki, ötən həftə yerli kanallara 5 milyon 251 min adam baxıb: ”Ortalama izləmə müddəti 4 saat olub. Türk kanallarına isə 3 milyon 500 min adam baxıb. Onların ortalama baxışı 2 saat olub. Rus kanallarına baxış sayı isə 1 milyon 550 min olub və ortalama baxış müddəti 30 dəqiqədir. 25 faiz əhali isə digər platformaları izləyib”. Şura sədri deyib ki, bəzən sosial şəbəkələrdə belə fikirlər səsləndirilirdi ki, yerli kanallara baxan yoxdur: ”Amma iri reklam televiziyalardadır. Bu iki məsələ üst-üstə düşmürdü. Gələn ilin əvvəlindən kanalların reytinqi Şuranın saytında elan olunacaq. İstənilən şəxs oradan hansı kanalların daha çox izləndiyinə baxa biləcək. Burada geniş data məlumatı olacaq”.

**“İndidən kanalları xəbərdar edirik”**

Audiovizual Şuranın sədri yayımçılara xəbərdarlıq edib. İ.Səttarov qeyd edib ki, kabel operatorlarında yayımlanan kanalların 90 faizi lisenziya əsasında fəaliyyət göstərir. O bildirib ki, gələn ildən bu rəqəmi 100 faizə çatdırmağı hədəfləyirlər: ”Bəzi kabel yayımçılarında qeyri-qanuni fəaliyyət göstərən kanallar olduğuna dair məlumatlar var. Biz onları lisenziya almağa dəvət edirik. Əks halda onların fəaliyyəti dayandırılacaq. Eyni zamanda gələn ildən hansısa bir bədii film pirat üsulla yayımlansa, həmin kanal cəzalandırılacaq. İndidən kanalları xəbərdar edirik”.

İsmət Səttarov bildirib ki, bu il televiziyalara 8 xəbərdarlıq edilib, 4 dəfə yayımın dayandırılması ilə bağlı qərar qəbul edilib. O bildirib ki, radiolara isə 1 efir dayandırılması tətbiq olunub: ”Televiziyalarda 323, radiolarda isə 78 pozuntu aşkarlanıb. Hər aşkarlanan pozuntu ilə bağlı radio və televiziyalara daxili xəbərdarlıq göndərilib. Televiziyalardakı pozuntuların 184-ü, radiolarda isə 50-si reklamla bağlı olub. Kanal və radiolardakı pozuntular sistematik xarakter daşımır. Məsələn, qanuni olaraq hər bir televiziya və radio efiri Dövlət Himninin səsləndirilməsi ilə başlamalıdır. Amma bəzən olur ki, texniki səbəbdən hansısa gün verilə bilmir. Buna görə xəbərdarlıq etmək düzgün olmaz”.

**“Audiovizual Şuraya 200-ə yaxın şikayət daxil olub”**

İsmət Səttarov bildirib ki, bugünə qədər Audiovizual Şuraya 196 şikayət daxil olub: ”Onların bir qismi işlə təminetmə, veriliş açmaqla bağlı olubsa, bir qismi də verilişlərdə rastlanan problemlərə görə olub”.

**İsmayıl**



# "Azərbaycan torpaqlarının necə işğal olunduğu bəllidir"

## Alqış Musayev: "Prezident İlham Əliyev daha qüdrətli Azərbaycanla, ümumtürk coğrafiyası ilə bağlı tarixi yaddaşın bərpası istiqamətində çox böyük işlər görür"

**Prezident İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olub və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşüb. Dövlət başçısına binada yaradılan şərait barədə məlumat verilib. Bildirilib ki, Qərbi Azərbaycan İcması 1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisidir.**

Bu il avqustun 3-də İctimai Birliyin adı dəyişdirilərək "Qərbi Azərbaycan İcması"na çevrilib, İcmanın yeni Nizamnaməsi təsdiq olunub. Təşkilat 1989-cu ildən Qərbi Azərbaycan qaçqınlarının problemləri ilə məşğul olan və 1988-1991-ci illərdə qaçqın düşən azərbaycanlılar barədə faktların və sənədlərin toplandığı və saxlandığı yeganə ictimai qurumdur. Ölkə rəhbərinin diqqətinə çatdırılıb ki, 1988-1991-ci illərdə Qərbi Azərbaycandan qovulmuş 50 mindən çox ailənin 20 minə qədərinə dəymiş ziyan hesablanıb və hazırda bu işlər davam etdirilir. Həmin illərdə Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə dəqiq statistikası aparılıb, 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanmasını davam etdirir. İcma nümayəndələri ilə görüş zamanı çıxış edən dövlət başçısı Qərbi Azərbaycandan olan soydaşlarımızın öz doğma yurdlarına qayıdışı ilə bağlı mühüm mesajlar verib: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar". Prezident tarixi həqiqətləri bir daha diqqətə çatdıraraq İcma qarşısında önəmli tapşırıqlar qoyub.

**Dövlət başçısı ilə görüşdə iştirak etmiş "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev "Şərq"ə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev daha qüdrətli Azərbaycanla, ümumtürk coğrafiyası ilə bağlı tarixi yaddaşın bərpası istiqamətində çox böyük işlər görüb və görməkdə davam edir. Baş redaktor vurğulayıb ki, Qərbi Azərbaycan İcmasının bir qrup nümayəndəsi ilə görüş dövlət başçısının gördüyü və görəcəyi işlərin bir qolu, həlqəsidir:** "Türk coğrafiyasının, Azərbaycan torpaqlarının necə işğal olunduğu bəllidir. Ermənilər əvvəlcə bir ərazini hədəf seçirlər. Sonra onun ətrafında tarixi saxtalaşdırmaqla, etnonimləri erməniləşdirməklə məşğul olurlar. Üçüncü mərhələdə isə tarixi yaddaşımızı, etno-yaddaşımızı bloklayırlar ki, biz bu barədə ümumiyyətlə düşünməyək. Ayrı-ayrı mövzularla başımızı qatıblar. İlham Əliyev bizim tarixi yaddaşımızı bərpa edir. Hesab edirəm ki, bu sahədə böyük işlər görülüb. 44 günlük Vətən müharibəsində həm də ona görə qalib gələ bildik ki, son yüz ildə, bəlkə iki yüz ildə Azərbaycan xalqının tarixi yaddaşı indiki kimi canlı, ayaqüstə, təzə-tər olmayıb. Tarixi yaddaşın güclü olması torpaqlarımıza qayıdışa start verilməsi deməkdir. O baxımdan düşünürəm ki, cənab Prezidentin Qərbi Azərbaycan İcması ilə görüşü, çıxışları, konseptual baxışları ümumtürk tarixi ilə bağlı görülən işlərin bir detalıdır. Əminik ki, bu, reallaşacaq".

**A.Musayev bəyan edib ki, cənab Prezident vaxtı ilə Naxçıvanda Zəngəzurla bağlı danışarkən bildirmişdi ki, məqsəd türk coğrafiyasının parçalanması, türk xalqlarının bölünüb, ayrı-ayrı fraqmentlərdən ibarət olması, zəifləməsi idi:** "Dövlət başçısı 50 yaşında Ağcabədidə Şuşadan danışırdı. Deyirdi ki, xalqımız mütləq öz torpaqlarına qayıdacaq. 60 yaşını Şuşada, Cıdır düzündə Meğri, Göyçə, İrəvan bizim dədə-baba torpaqlarımızdır. Türk Dövlətləri Təşkilatının sammitində dövlət başçısı İran azərbaycanlılarının hüquqlarından danışdı. Məsələyə o qədər peşəkarcasına izah verdi ki, buna hansısa siyasi irad bildirmək mümkün deyildi. Prezident bəyan etdi ki, İran azərbaycanlılarının əsas problemi dillə bağlıdır və bu, bizi narahat edir. Çünki dili tədrisdən, məktəbdən uzaqda saxladıqda dil ədəbi komponentlərini itirir və məişət səviyyəsinə düşür. Məişət səviyyəsinə düşmüş dil məhvolma ilə üzləşir. Bu, peşəkarcasına biz izahdır. Cənab Prezident Qərbi Azərbaycanla bağlı vurğuladı ki, hər bir insanın öz dədə-baba yurdunu, əcdadlarının məzarını ziyarət etməsi onun fundamental haqqıdır. Dünya da bu haqqı tanımalıdır. Buna qarşı hansısa siyasi iddia və yaxud bəhanə irəli sürmək qeyri-mümkündür".

*Baş redaktorun sözlərinə görə, cənab Prezident dedi ki, bizə əminlik verən tarixi yaddaşımızın güclü olmasıdır. Həmçinin geosiyasət bizim tərəfimizdədir:* "Biz İkinci Qarabağ müharibəsində təkcə erməniləri məğlub etmədik, həm də geosiyasəti udduq. Ermənilər isə geosiyasəti uduzublar, geosiyasi dalana çevriliblər. Postmüharibə dövrünün ən dəqiq mənzərəsini cənab İlham Əliyev təsvir edib, deyib ki, ayağımızın altındadırlar. Onlar sözün həqiqi mənasında, həm demoqrafiq, həm iqtisadi, həm də coğrafi baxımdan ayaqlarımızın altındadırlar. Ermənilərin müəyyən aktivlik göstərməsini də ayağımıza dolaşma cəhdi kimi dəyərləndirirəm. İnanıram ki, biz bu mərhələni də çox böyük uğurla arxada qoyacağıq".

**İsmayıl Qocayev**

# Mətbuat Şurası "Euronews" və "Le Figaro"ya müraciət edib

## Fransa mediası Cənubi Qafqazda yenidən siyasi avantüra planlarını reallaşdırmaq istəyənlərə tribuna verməməlidir



**Bu barədə "Şərq"ə MŞ-dən məlumat verilib. Bildirilib ki, Azərbaycanın Qarabağ bölgəsinin Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarət zonasında olan Xankəndi şəhərində dekabrın 25-də keçirilmiş aksiya zamanı çıxış etmiş bəzi şəxslərin nitqlərindəki məzmunun "Le Fiqaro" qəzetində və "Euronews"un Fransa xidmətində birtərəfli qaydada və qərəzli səkildə yayımlanması dərin təəssüf hissi doğurur.**

Bütövlükdə Azərbaycan jurnalistlərinin haqlı narazılığını ifadə edən Mətbuat Şurasının yanaşması bundan ibarətdir ki, medianın zorakılığa, bölücülüyə və qarşıdurmaya xidmət edən təbliğat üçün tribunaya çevrilməsi yolverilməzdir, jurnalistikanın peşə prinsiplərinə ziddir.

Qarabağ Azərbaycanın BMT tərəfindən tanınmış suveren ərazisi, Xankəndi qədim Azərbaycan şəhəri, orada yaşayan əhali isə Azərbaycan vətəndaşlarıdır. Amma "Le Fiqaro" qəzeti və "Euronews"un Fransa xidməti dekabrın 25-də keçirilən aksiyasını işıqlandırarkən, nəinki Azərbaycanın suveren hüquqlarını, hətta Qarabağ bölgəsində yaşayan sıravi erməni əsilli vətəndaşların belə, mənafelərini nəzərə almayıblar. Onlar məsələni otuz ilə yaxın müddətdə Azərbaycan torpaqlarını işğalda saxlamış cinayətkarların və onların əməllərinin davamçılarının maraqları kontekstində təqdim ediblər.

Təəssüflə bildiririk ki, "Le Fiqaro" və "Euronews"un Fransa xidməti Cənubi Qafqazda sabitliyin təmin olunması, xalqların dinc, yanaşı yaşamaları üçün göstərilən səyləri deyil, bölücülüyə xidmət edən, bölgədə sülh gündəliyinin əleyhinə fəaliyyət göstərənlərə meydan verdilər. Jurnalistika dəyərlərinə münasibətdə belə etinasızlığın göstərilməsi yolverilməz və qəbuledilməzdir.

"Le Fiqaro" və "Euronews" jurnalistikanın tərəfsizlik və obyektivlik kimi mühüm prinsiplərinə uyğun olaraq, Azərbaycanın vətəndaş cəmiyyəti nümayəndələrinin Laçın-Xankəndi yolunda, artıq 15 gündür ki, davam edən aksiyası ilə maraqlana və məsələnin əsl mənzərəsini bütün tərəflərin mövqeyi nəzərə alınmaqla, təsvir edə bilərdilər. Əfsus ki, biz bu peşəkar yanaşmanı görmədik.

"Le Fiqaro" nəşri Fransanın tanınmış ictimaiyyət nümayəndələrinin Azərbaycana qarşı qeyri-obyektiv müraciətini təşkil edərək və yayaraq, belə bir təsəvvür formalaşdırmağa çalışır ki, guya, Azərbaycan Qarabağ ermənilərinə qarşı etnik təmizləmə siyasəti həyata keçirir. Aydındır ki, bu bəyanat, Fransadakı erməni lobbisinin səyləri nəticəsində ərsəyə gəlib və onun maraqlarına xidmət edir. Qeyd etməyi vacib sayırıq ki, KİV qurumunun hansısa materialı siyasi konyunkturaya uyğun olaraq işıqlandırması, "Jurnalistlərin hüquq və vəzifələrinə dair Beynəlxalq Münhen Bəyannaməsi"nin prinsiplərinə ziddir. Jurnalist və KİV qurumu bundan çəkinməli, ictimaiyyətin həqiqəti bilməsi üçün çalışmalıdır.

Belə mənfi meyillər, Azərbaycan və Fransa xalqları arasında münasibətlərə də ciddi zərər gətirir, Azərbaycan ictimaiyyətində Fransa haqqında mənfi rəyin yaranmasını sürətləndirir.

Öz sıralarında Azərbaycanın məşhur media orqanlarını, jurnalist təşkilatlarını birləşdirən Azərbaycan Mətbuat Şurası "Le Fiqaro" qəzetini və "Euronews"un Fransa xidmətini Qarabağ həqiqətlərinə həssas yanaşmağa çağırır, beynəlxalq hüququn norma və prinsiplərinə, Fransa dövlətinin də tanıdığı müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyünə, suverenliyinə hörmətlə yanaşmağa dəvət edir. Şura hesab edir ki, bu media orqanları, ümumən, Fransa mediası Cənubi Qafqazda yenidən siyasi avantüra planlarını reallaşdırmaq istəyənlərə tribuna verməməli, reallığı görməli, ədalət prinsiplərinə əsaslanmalıdırlar. Yalnız bu yolla bölgədə davamlı sülhün yaradılmasına, Azərbaycan və erməni xalqlarının birgə təmsil olunduqları coğrafiyada inkişafa və tərərqqiyə, insan hüquq və azadlıqlarının qorunmasına töhfə vermək mümkündür.

İnanmaq istərdik ki, müraciətimiz səmimi qəbul ediləcək, müvafiq nəticə çıxarılacaq, vurğuladığımız məqamlar kifayət qədər həssas daxili təbiətə malik Cənubi Qafqaz bölgəsinə ədalətli yanaşmanı təmin etmək meyarı kimi, "Le Fiqaro" qəzeti və "Euronews"un Fransa xidməti də daxil olmaqla, bütövlükdə Fransa və Avropa mediasının gələcək fəaliyyətində nəzərə alınacaqdır.



# Bakı sülh müqaviləsinin qısa müddətdə imzalanmasının tərəfdarıdır

## Əgər tərəflər razılığa gəlməsə və hansısa bir ortaq sənədə imza atmasalar, o zaman normallaşma ola bilməz

**"Rusiya Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasının bütün istiqamətləri üzrə birgə fəaliyyətin tezliklə bərpa olunacağına ümid edir".**

Bunu Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin TASS-a müsahibəsində deyib.

"Hesab edirik ki, indiki halda sənədin razılaşdırılması müddəti bir o qədər də vacib deyil. Əsas odur ki, rəsmi Bakı və İrəvan regionda sabit və ədalətli sülhə zəmanət verəcək qarşılıqlı məqbul həllə nail ola bilsin", - diplomat bildirib.

Onun sözlərinə görə, rəsmi Moskva Rusiya, Azərbaycan və Ermənistan liderlərinin oktyabrın 31-də Soçidə keçirilmiş sammitin yekunlarına əsasən imzaladıqları üçtərəfli bəyanatda təsbit olunmuş müddəalara uyğun olaraq danışıqlar prosesinə kömək etməyə hazırdır.

**Qaluzinin açıqlamasını "Şərq"ə dəyərləndirən politoloq İlqar Vəlizadə bildirib ki, sülh sənədinin imzalanmaması ikitərəfli münasibətlərin tənzimlənməsində əngəllər törədir:** "Əgər tərəflər razılığa gəlməsə və hansısa bir ortaq sənədə imza atmasalar, o zaman normallaşma ola bilməz. Digər tərəfdən, Kreml vəziyyətin stabilləşməsini istəyir. Amma prosesin normallaşması üçün daha ciddi addımların atılması lazımdır. Burada nəinki Rusiya, ümumiyyətlə digər vasitəçilər də aciz qalırlar. Proseslərin gələcəkdəki inkişafına gəldikdə isə ermənilərin Qarabağda yaşaması çətindir yalanları məsələnin qeyri-müəyyən vaxta təxirə salınmasından xəbər verir. Bu isə münaqişənin olduğu kimi qalması deməkdir. Azərbaycan tərəfi isə bununla razı deyil. Rəsmi Bakı məsələləri qısa müddətdə həll etməyin tərəfdarıdır".

**Nihat Müzəffər**

# Plan dəyişir

## "Rusiya Vardanyandan imtina edərək onu digər böyük layihəyə hazırlayır"

**"Qarabağdakı mülki ermənilərin hisslərini istismar edən Ruben Vardanyan-Araik Arutyunyan cütlüyünün öz aralarında da problem var".**

*Bu barədə "Şərq"ə açıqlamasında analitik Aqşin Kərimov deyib. Ekspert bildirib ki, Rusiya emissar kimi Qarabağa göndərdiyi Vardanyandan imtina edərək onu digər böyük layihəyə hazırlayır:*



"Böyük ehtimalla Vardanyanın Ermənistanda Nikol Paşinyana ciddi təsir edə biləcək boz kardinallıq institutunun başına gətirilməsi üzərində iş gedir"

"Böyük ehtimalla Vardanyanın Ermənistanda Nikol Paşinyana ciddi təsir edə biləcək boz kardinallıq institutunun başına gətirilməsi üzərində iş gedir. Arutyunyan isə mənganədə sıxılır, nə onun, nə də İrəvanın Vardanyandan xoşu gəlir. Ancaq hansısa bir məqamda situativ sövdələşmə onlara lazımdır. Vardanyan-Arutyunyan cütlüyü səylərini və resurslarını Qarabağ ermənilərini faktiki girov kimi saxlamağa xərcləyirlər və onları zor gücünə Azərbaycan əleyhinə kampaniyanın içərisinə yuvarlayırlar. Təbii ki, separatçılıq ruhu bəzi mülki ermənilərin də canına hopub. Onlar da az aşın duzu deyillər. Amma onlar isterika və qorxu səbəbindən Azərbaycana qarşı fəaliyyətdən çəkinirlər".

**A.Kərimov qeyd edib ki, Ruben-Araik cütlüyü Qarabağdakı qızıl yataqlarına olan tamahı ucbatından ermənilərin onların fəaliyyətinə problem yaratmamasına və ermənilərin sayı ilə bağlı şişirdilmiş rəqəmlərin doğruluğunu sübut etməyə çalışırlar:** "Ancaq faydası yoxdur. Xankəndidə əgər adına mitinq demək mümkündürsə, keçirilən aksiyalara iştirakçılar zorla çıxarılır və say görüntüsü yaratmaq cəhdi bununla da fiasko ilə nəticələnir. Şuşa-Xankəndi yolundakı aksiyalardan sonra Xankəndidə ermənilərin sayının o qədər də çox olmadığı üzə çıxdı. Bakı bu kartla dünyaya yalan məlumatlar çatdıran qüvvələrin saxtakarlığını ifşa etdi. Bu həm də onun dəlilidir ki, havadar qüvvələrin dəstəyi ilə Ermənistandan Gorus-Xankəndi yolu ilə xeyli sayda insan daşınaraq Azərbaycan torpaqlarına gətirilib. Bunun əsas məqsədi orada yaşayan ermənilərin sayını çox göstərmək olub. İndi isə Rubenlə Araik hirslərindən zəncir çeynəyərək tez-tez aksiyalar təşkil edir və böyük ehtimal ki, toplanışdan yayınan ermənilərə qarşı zor tətbiq edilir və onlara ermənilərə məxsus işgəncələr verilir. Onlar yenidən separatçıları ayaqlandıraraq Şuşa-Xankəndi yoluna yürüşə çağırırlar. Əgər Rusiya sülhməramlıları buna maneə yaratmasalar, həmin erməniləri Azərbaycan polisi və Daxili Qoşunların hərbi qulluqçuları qarşılayacaq. Onlar Azərbaycan təhlükəsizlik qüvvələrinin hüquqi müstəvidə atacağı addımlarla qarşılaşmaq istəmirlərsə, bu sevdadan əl çəkməlidirlər, çünki ölkənin güc strukturlarının işi asayişi bərqərar etməkdir. Ruben-Araik cütlüyünün izdiham yaratmaq görüntüsü elə öz başlarında çatlayacaq və bu da onların ifşası üçün yeni vasitəyə çevriləcək".

**İsmayıl Qocayev**

**"Erməni separatçılarının 10 gündür çalışdıqları mitinq dünən Xankəndi şəhərinin mərkəzində baş tutdu. Erməni milyarder Ruben Vardanyan 30 oktyabr aksiyasında olduğu kimi, mitinqdə kütləviliyi təmin etmək üçün yenə kisənin ağzını açdı.**



# Xankəndi sakinlərinin sosial şəbəkə hesabları izlənilir

## Bakı indiki məqamda Şuşa-Laçın yolundakı aksiyaların miqyasını artırmalıdır

Vardanyan Xankəndi ətrafından gələnlərin nəqliyyat xərclərini də yenə üzərinə götürüb. Bundan başqa o, iştirakçıların hər birinə gəldikləri məsafədən asılı olmayaraq 30-40 dollar paylayıb".

**Bunu "Şərq"ə açıqlamasında politoloq Turan Rzayev deyib. O bildirib ki, diqqətçəkən bir məqam Xankəndidə məskunlaşan sadə ermənilərin mitinqə gəlməyə məcbur edilməsidir:** "Separatçılar aksiyada iştirak etmək istəməyənləri işdən qovulacaqları ilə hədələyib. Bu da azmış kimi, Xankəndi sakinlərinin sosial şəbəkə hesabları izlənilir, təftiş edilir. Hətta aksiya əleyhdarı olan bir çox erməninin döyülüb işgəncə verilməsinə dair faktlar var.

Vardanyanın məhz ötən gün Xankəndidə aksiya keçirməsi təsadüfi deyildi. Dekabrın 26-27-də Müstəqil Dövlətlər Birliyinin (MDB) liderləri Rusiyanın Sankt-Peterburq şəhərində ənənəvi Yeni il ərəfəsində qeyri-rəsmi sammiti keçiriləcək.

Bu, Vardanyanın ikinci cəhdidir. Məsələ ondadır ki, oktyabrın 30-da Soçidə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistan Baş naziri Nikol Paşinyan arasında baş tutan görüş ərəfəsində Vardanyan Xankəndidə mitinq təşkil etdi. Vardanyan iki cəhdlə faktiki olaraq separatçı-terrorçu rejimin danışıqlar prosesində "tərəf" olaraq qəbul etdirilməsinə çalışır".

**Politoloqun qənaətincə, Vardanyan yaxşı bilir ki, separatçılar mövzusunda həm Qərb ölkələri, həm də Rusiya ortaq mövqeyə malikdir. Ona görə də mühüm görüşlər öncəsi aksiya təşkil edərək "Qarabağ əhalisi Bakını istəmir" mesajını ötürür:** "Vardanyan mitinqdə çıxışı zamanı açıq şəkildə deyir, "Birincisi, Azərbaycana inteqrasiya olunuruq, ikincisi, burdan köçüb gedirik, üçüncüsü, savaşırıq. Mən 2 sentyabrda qərar vermişəm ki, Azərbaycana tabe olmayacam, buradan getməyəcəm, mübarizə aparacam. Hər şeyimi müstəqilliyə qurban verəcəm. Möcüzə gözləməyin, möcüzə olmayacaq, qarşıda bizi olduqca çətin yol gözləyir". Bu, Bakıya qarşı açıq müharibə elanı etməkdir. Vardanyan beləcə son sözünü demiş oldu.

Rəsmi Bakı indiki məqamda həm Ermənistana, həm separatçılara, həm də digər üçüncü tərəf sayılacaq qüvvələrə layiqli cavab verməli, ən yaxşı halda Şuşa-Laçın yolundakı aksiyaların miqyasını artırmalıdır. Konkret desək, aksiyalara dövlət dəstəyi verilməli, mövcud aksiyaçı sayı 5-10 misli artırılmalıdır. Beləcə, Laçın yolunda aksiyanın davamlılığı və nəzarətin müəyyən qədər artırılması ola bilər".

**Aygün Tahir**



# PKK Parisi viran qoydu

## Deyilənlər oldu, artıq Fransa bəslədikləri terrorçuların qurbanına çevrilir

**Fransanın paytaxtı Parisdə Ahmet Kaya Mədəniyyət Mərkəzinin yaxınlığında Fransa vətəndaşı olan 69 yaşlı kişi silahla atəş açaraq 3 nəfəri öldürüb. Hadisə yerinə gələn PKK terrorçuları öldürülən şəxslərin kürdlər olduğuna diqqət çəkərək fransız polislərinə hücum çəkiblər. Həmçinin ətrafdakı mağazalara ziyan vurublar. Nəticədə etirazlar böyüyüb və polislə qarşıdurma yaşanıb. Terrorçuların qoşulduğu nümayişçilər küçələrdə barrikadalar qurublar.**

Hadisələr zamanı terror təşkilatı PKK-ya dəstək şüarları səsləndirən təcavüzkarlar terror təşkilatını simvolizə edən bayraqlar daşıyıb. Parisdəki hücumdan sonra terror təşkilatına mənsub 150-yə yaxın PKK tərəfdaşı Fransanın cənubundakı Marsel şəhərindəki valiliyin qarşısında toplaşıb. Fransanın Baş naziri Elizabet Born hadisə ilə bağlı istintaqın aparıldığını qeyd edib. Daxili işlər naziri Gerald Darmanin təcavüzkarın ifrat sağçı olduğuna dair dəqiq məlumatın olmadığını bildirib. Darmanin deyib ki, hücumu törədən şəxs qəsdən əcnəbiləri hədəf alsa da, kürdlərin xüsusi olaraq hədəf alındığını söyləmək olmaz. Fransa Prezidenti Emmanuel Makron rəsmi "Twitter" səhifəsində etdiyi paylaşımda bu ifadələrə yer verib: "Fransadakı kürdlər Parisin ortasında xain hücumun hədəfi oldu". Türkiyə Prezidentinin sözçüsü İbrahim Kalın tvitterdə "Bu, Fransadakı PKK-dır. Suriyada dəstəklədiyiniz terror təşkilatı eynidir" mesajını paylaşıb. Tvitter hesabında etirazlar zamanı qeydə alınan görüntünü paylaşan Kalın PKK-nın son 40 ildə minlərlə insanı qətlə yetirdiyini bildirib. Prezidentin sözçüsü Paris administrasiyasına müraciət edərək, "İndi Parisin küçələrini yandırırlar. Siz hələ də susacaqsınız?" kimi ifadələrdən istifadə edib.

Türkiyənin milli müdafiə naziri Hulusi Akar PKK terror təşkilatının tərəfdarlarının Fransa paytaxtında təşkil etdiyi iğtişaşları şərh edib. Deyib ki, Parisdə baş verən son hadisələr göstərdi ki, fransızların bəslədiyi ilan onları sancmağa başlayıb: "İndi hər kəs bu terror təşkilatının əsl üzünü görməlidir". Nazir Suriyanın şimalından Türkiyənin milli təhlükəsizliyi üçün təhlükənin qarşısını almaq üzrə atılan addımlardan da danışıb. Onun sözlərinə görə, Türkiyə Silahlı Qüvvələri uğurlu əməliyyatları ilə ölkənin cənub sərhədləri yaxınlığında "terror dəhlizi" yaratmaq cəhdinin qarşısını alıb: "Biz bu cəhdlərə qarşı mübarizəmizi davam etdirəcəyik və nə lazımdırsa edəcəyik. Heç kim bizdən terror ünsürlərinin sərhədimizin yaxınlığında yuva salması faktını qəbul etməyimizi gözləməməlidir. Türkiyə Silahlı Qüvvələri ölkəmizin və xalqımızın təhlükəsizliyini təmin etmək üçün lazım olan bütün tədbirləri lazımi yerdə və lazımi zamanda görüb və görməyə davam edəcək". Akar vurğulayıb ki, Türkiyə Suriya və İraq da daxil olmaqla bütün qonşularının ərazi bütövlüyü və suverenlik hüquqlarına hörmət edir və Türkiyə ordusunun bölgədəki yeganə hədəfi terrorçulardır.

**AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli "Şərq"ə bildirib ki, Qərb, ələlxüsus Fransa bu kimi hadisələrdən dərs çıxartmır:** "Şübhə yox ki, rəsmi Paris budəfəki qarşıdurmadan, terrorçuların yaratdığı təhlükədən düzgün nəticə çıxartmayacaq. Fransada anti-türk mövqeyi çox güclüdür. Türkiyə düşməni PKK-çıların fransız polisinə hücum etməsi, şəhərdə iğtişaş törətməsi, quldurluq etməsi Fransanın yanaşmasını dəyişməyəcək. PKK-çılar yenə də Avropada, xüsusən Fransa kimi ölkələrdə özləri üçün məskən salacaq, rahat şəkildə fəaliyyət göstərəcəklər. Vaxtilə Türkiyə lideri R.T.Ərdoğan da demişdi ki, Fransa hökuməti bəslədikləri terrorçuların ciddi problemləri ilə üzləşəcəklər. Elə də oldu. Bunun davamı da gələ bilər. Amma düşünmürəm ki, hələlik bu cür olaylar Avropada anti-PKK baxışı formalaşdırsın. Türkofobiya o qədər güclüdür ki, həqiqəti görməyə imkan vermir. Gözləri kor, qulaqları kardır".

**İsmayıl Qocayev**

# "Bayrağımız Xankəndidə mütləq dalğalanacaq"

## Akif Nağı: "Digər problemlər ondan sonra çözüləcək"

**Ermənistan XİN başçısı Ararat Mirzoyan Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovu "yalan danışmaqda" ittiham edərək növbəti həyasızlığını sərgiləyib. Azərbaycan XİN rəhbəri rusiyalı həmkarı Sergey Lavrovla görüşdə Ermənistanın 8 kəndi azad edəcəyini vəd etdiyini, ancaq bu razılaşmanı yerinə yetirmədiyini bildirib.**



Mirzoyan buna cavab olaraq qeyd edib ki, dərc olunan müqavilələrdə yazılanlardan və imzalananlardan başqa heç bir razılaşma yoxdur. O iddia edib ki, Azərbaycanın xarici işlər nazirinin bu sözləri "uydurmadır" və 10 noyabr bəyanatının maddələrinin ölkəsi tərəfindən pozulmasına haqq qazandırmaqdır: "Ermənistan dəfələrlə Ermənistan və Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan və Azərbaycan SSR arasında inzibati sərhəddə yerləşdirilməsini təklif edib". Qeyd edək ki, Qazaxın 7, Naxçıvanın 1 kəndi Azərbaycan SSR-nin sərhədlərinə daxildir. Bu halda Mirzoyanın Azərbaycan kəndlərini işğalda saxlamağa davam edəcəklərini elan etməsi anlaşılmaz, məntiqsiz və açıq-aşkar işğal deməkdir. Üstəlik, Azərbaycan təkidlə sərhədlərin delimitasiya və demarkasiya edilməsini tələb edir ki, "qoşunların dayanacağı yer" bəlli olsun. Ermənistan isə müxtəlif bəhanələrlə prosesi uzadır. Xatırladaq ki, 8 kənd məsələsi ötən gün Fransa Prezidenti E.Makronla Azərbaycan dövlət başçısı İlham Əliyevin telefon danışığı zamanı da gündəmə gətirilib. Prezident İlham Əliyev Makronun nəzərinə Azərbaycanın 8 kəndinin hələ də işğalda saxlandığını çatdırıb.

**Azad Vətən Partiyasının sədri Akif Nağı "Şərq"ə açıqlamasında bildirib ki, üçtərəfli bəyanatda Qazaxın 7, Naxçıvanın 1 kəndinin qaytarılması məsələsi açıq-aşkar əksini tapıb. Partiya rəhbərinin sözlərinə görə, bəhs edilən ərazilərimiz mütləq Ermənistandan alınmalıdır:** "Kərki kəndi 1990-cı il yanvarın 18-də işğal olunan ilk ərazilərimizdəndir. Bunu erməni tərəfi özü də dəfələrlə etiraf edib. Sadəcə olaraq Paşinyan hökuməti manevr edir, məkrli oyun oynayır. Hər cür bəhanə ilə sülh müqaviləsini bağlamaqdan yayınırlar. Xankəndidə çıxardıqları oyunlar da buna xidmət edir. Separatçıları "tərəf" kimi ortaya atmaq üçün qondarma rejimlə əlaqələrinin olmadığını iddia edirlər. Məqsəd atdıqları imzadan qaçmaq, verdikləri sözə əməl etməməkdir. Ermənilər üçün verilən vədlərdən boyun qaçırmaq adi haldır, bunu vərdişə çeviriblər. Dünən dedikləri bu gün söylədikləri ilə tamamilə ziddiyyət təşkil edir. Üçtərəfli bəyanatın imzalanmasından iki il keçməsinə baxmayaraq hələ icra olunmaması ermənilərin öhdəliklərinə hansı formada əməl edib-etmədiyinin göstəricisidir. Ermənistan tərəfi Moskvada, Brüsseldə və digər platformalarda əldə olunmuş heç bir razılaşmanı yerinə yetirməyib. Bu da onu göstərir ki, İrəvan hökuməti ilə hansısa sülh sazişi imzalamaq qeyri-mümkündür. Azərbaycan başqa vasitələrlə öz hədəflərinə çatmalıdır. Bütün torpaqlarımızda suveren hüquqlarımız, nəzarətimiz bərpa olunmalıdır".

**A.Nağı bildirib ki, İrəvan özbaşına hərəkət etmir:** "Ermənistanı təhrik edənlərin olduğu şübhəsizdir. Bəzi ölkələr, Rusiya, Fransa, müəyyən qədər ABŞ erməniləri təxribata səsləyir, Paşinyanın normal müzakirələrə start verməsinə əngəl törədirlər. Ancaq Azərbaycanın səbrinin azalması reallığını unudurlar. Rəsmi Bakının güclü müttəfiqləri var. Türkiyə, Pakistan və İsraillə yanaşı, Avropa ölkələri arasında da ölkəmizin dəstəkçiləri mövcuddur. Ona görə də ləngimədən hədəflərimizə çatmaq uğrunda mübarizə aparmalıyıq. Hədəfimiz isə Xankəndidir. Orada mütləq üçrəngli bayrağımız dalğalanmalıdır. Digər problemlər ondan sonra çözüləcək".

**İsmayıl Qocayev**



# Ukrayna Gürcüstanı Rusiyaya qarşı yanında görmək istəyir

## Lakin rəsmi Tbilisi Rusiyanın sərhədində yerləşir və Kremlin hədəfi olmaq istəmir

**"Biz bütün ölkələrin suverenliyinə hörmət edirik, lakin ən çox öz ölkəmizi sevirik".**

**Bunu Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Tbilisidə cari ilin nəticələrinə dair keçirilən "Səfirlərin konfransı - 2022"-nin açılış mərasimində çıxışı zamanı deyib.**

Baş nazir vurğulayıb ki, Gürcüstan hökumətinin başlıca öhdəliyi ilk növbədə öz əhalisini qorumaqdır: "Bizim əsas vəzifəmiz milli maraqlarımızı qorumaqdır. Mən dəfələrlə bildirmişəm və bunu öz siyasətimiz və fəaliyyətimizlə təsdiqləmişik ki, biz bütün ölkələrin suverenliyinə hörmət edirik, amma biz ən çox öz ölkəmizi sevirik".

İrakli Qaribaşvili əlavə edib ki, Ukrayna rəsmilərinin Gürcüstanla bağlı bəyanatlarını eşitmək xoş deyil və Ukraynada hazırda müharibə olduğundan hökumət bu məsələ ilə bağlı çox sayda bəyanat vermir.

Baş nazir Gürcüstanın maraqlarına qarşı digər ölkələrdən dezinformasiya kampaniyasının aparıldığını da qeyd edib.

Məsələni "Şərq"ə dəyərləndirən siyasi şərhçi Turab Rzayev qeyd edib ki, ortada iki fərqli məqam var: "Birincisi, Ukrayna Gürcüstanı aktiv olaraq yanında görmək istəyir. Yəni onların Kremlin əleyhinə açıq şəkildə dayanmalarını gözləyirlər. Buna isə haqqı çatır. Çünki Ukrayna və Gürcüstan həm Avropa İttifaqını ən çox inteqrasiya edən, həm NATO ilə qarşılıqlı əlaqələri yüksək olan, həm də NATO-ya üzv olmaq potensialı olan ölkələrdir. Ortada isə iki dövlətin Kremlə qarşı mübarizə aparmaq və Avropaya inteqrasiya etmək üçün qeyri-rəsmi ittifaqı var idi. Hətta Gürcüstandan xeyli sayda adam Ukrayna rəhbərliyində təmsil olunurdu. Gürcüstan, Ukrayna və Moldova "GÜAM"ın yeni formasını təsis etmişdilər. Bu səbəblə də rəsmi Kiyev, Tbilisidən böyük dəstək gözləyir. Axtardığı dəstəyi isə görə bilmir".

Analitikin sözlərinə görə, bunun obyektiv və subyektiv səbəbləri var: "Obyektiv səbəb odur ki, Gürcüstan Rusiyanın sərhədində yerləşir və Kremlin hədəfi olmaq istəmir. Yəni Moskvanın Gürcüstana qarşı böyük qadağa tətbiq etməsini və hərbi əməliyyatların onun ərazisinə keçməsini arzulamır. Subyektiv səbəb isə Gürcüstan hakimiyyətinin Rusiya ilə əlaqələrinin olmasıdır. Rusiyanın təsirini ölkədə artırdığına görə İvanişvilini hər zaman günahlandırırlar. Ümumiyyətlə, Saakaşvili hakimiyyətdən getdikdən sonra Rusiyanın Gürcüstandakı təsiri əhəmiyyətli dərəcədə artıb. Bunun üçün də rəsmi Tbilisi həm özünü qorumaq, həm də Moskva ilə münasibətləri saxlamaq üçün Ukraynaya açıq şəkildə dəstək vermir".

T.Rzayev əlavə edib ki, ortadakı ikinci məsələ Saakaşvili ilə əlaqədardır: "Bildiyimiz kimi, Saakaşvili həm də Ukrayna vətəndaşlığı daşıyır. O, Gürcüstan vətəndaşlığından xaric edilib və ölkəyə qanunsuz şəkildə daxil olmaqda təqsirkar bilinir. Hətta ittihama cavab olaraq son iclasda o, "Mən gürcü yox, ukraynalıyamsa, həmin dildə çıxış etməliyəm" demişdi. Bundan sonra məhkəmə təxirə salınmışdı. Saakaşvili məsələsində də Qərb və rəsmi Kiyev onun azad edilməsini istəyir. Gürcüstan hakimiyyəti isə onu daha çox həbsdə saxlayaraq, siyasi aləmdən neytrallaşdırmağa çalışır. Rəsmi Tbilisi həm Kremlə olan əlaqələri kəsmədiyinə, həm də Ukraynaya birbaşa dəstək vermədiyinə görə rəsmi Kiyev tərəfindən tez-tez tənqid olunur. Gürcüstan hakimiyyəti isə Qərblə əlaqələri pozmamaq adına, bu tənqidlərə açıq şəkildə cavab verə bilmir. Ona görə də Gürcüstanın baş naziri dolayı şəkildə belə bir açıqlama verib".

**Nihat Müzəffər**

# Rusiyanın İranı silahlandırması çox təhlükəlidir



## "Regionda gərginlik yaratmaqda maraqlı olan İrana qarşı region dövlətləri də mübarizə aparmalıdırlar"

**Rusiya PUA-lar müqabilində İrana indiyə qədər görülməyən hərbi dəstək verir.**

**Bu da onların münasibətlərini tamhüquqlu müdafiə tərəfdaşlığına çevirir. Ekspertlərin fikrincə, bu tərəfdaşlıq təkcə Ukrayna üçün deyil, İranın regiondakı qonşuları üçün də təhlükə yaradır.**

Qeyd edək ki, Rusiya "Şahed" kamikadze pilotsuz uçuş aparatları müqabilində tezliklə İrana 24 ədəd Su-35 döyüş təyyarəsi verə bilər.

Bu barədə İsrail televiziyasının 12-ci kanalına istinadən məlumat yayılıb. Telekanalın Moskva və Tehran arasında hərbi əməkdaşlığı izləyən Qərb kəşfiyyatındakı mənbələrinə görə, söhbət əvvəlcə Misir üçün nəzərdə tutulan 24 qırıcıdan gedir. Bildirilir ki, ABŞ Qahirəni sövdələşmədən imtina etməyə razı salıb, ruslar isə təyyarələr üçün alıcı axtarmağa başlayıb. İran Rusiyaya PUA-lar tədarük etməyə başlayandan sonra həmin təyyarələrin məhz İslam Respublikasına satmaq qərara alınıb. Qərb kəşfiyyatının məlumatına görə, iranlı pilotların yeni qırıcılardakı təlimi tam sürətlə davam edir. Məlumatda qeyd edilir ki, Rusiyanın İranla artan hərbi əməkdaşlığı Qüdsü Ukraynaya silah tədarük etməyə sövq edə bilər.

**Rusiya ilə İran arasındakı hərbi-texniki əməkdaşlığı "Şərq"ə şərh edən politoloq Tural İrfanın sözlərinə görə, İranın Ukrayna-Rusiya savaşında Rusiyaya PUA ixrac etməsi məlum idi və hazırkı vəziyyətdə Qərb ikinci cəbhə açmaq istəmir:** "Reallıqda bu gün Qərb faktiki olaraq Ukraynada Rusiya ilə savaşır. Odur ki, İranın əməllərini bir tərəfə yazaraq Rusiyadan sonrakı mərhələyə saxlayır. Eyni zamanda müəyyən qədər İranın başını qatmaq üçün daxildəki üsyanlara dəstək verir. Rusiyanın İrandan silah tədarük etməsi müəyyən mənada başadüşüləndir ki, o, faktiki savaşır. Lakin Rusiyanın İrana silah verməsi, ələlxüsus da ki, söhbət qırıcılardan gedirsə, bu çox təhlükəlidir. İranın Rusiya ilə hərbi-texniki tərəfdaşlığı, bəlkə də müttəfiqliyi bölgə üçün yaxşı heç nə vəd etmir. Çünki İranın bölgədəki mövqeyi bəllidir və o həm region, həm də dünya üçün bir təhlükə, terror mənbəyidir. Belə bir rejimin hərbi cəhətdən zənginləşdirilməsi bütün region dövlətləri üçün, ən çox da Azərbaycan üçün ciddi təhdiddir".

*Politoloq deyib ki, İranın son dövrdəki mövqeyi, hərbi təlimlər keçirilməsi və bir sıra siyasi bəyanatları bunu deməyə əsas verir ki, İran regionda özündən başqa güc görmək istəmir:* "İranın əsl məqsədi Türkiyə ilə region dövlətlərinin, əsasən də Azərbaycanın daha mükəmməl əlaqələrini əngəlləməkdir. Çünki bunun nəticəsində, o, eyni zamanda digər türk dövlətləri ilə də Türkiyənin, Azərbaycanın münasibətləri korlaya biləcəyini təxmin edir. Zəngəzur dəhlizinə qarşı şivən qopartmasının da əsl səbəbi budur. İran uzun zamandır ki, məzhəb ixtilafını Azərbaycanda körükləməyə çalışır ki, əhalisinin əksəriyyəti şiə sayılan Azərbaycanı sünni Türkiyə ilə ayırsın. Buna da nail ola bilmir və daha da aqressivləşir. Hərbi-texniki cəhətdən güclənməyə çalışmasının hədəfində öncə Azərbaycan var. Çünki İran hesab edir ki, Azərbaycan İsraili regiona gətirir və bu da açıq İrana qarşı yönəlib. Lakin əslində bu belə deyil. İran sadəcə belə bir əsassız iddia uyduraraq bəhanə edir. Hesab edirəm ki, ABŞ-nin və digər Qərb dövlətlərinin İrana qarşı sanksiyaları sərtləşdirilməlidir. Çünki İran xalqı bu gün faktiki olaraq işgəncəyə və zülmə məruz qaldığı halda fars rejimi silah-sursat almaq üçün çalışır. Həmçinin regionda gərginlik yaratmaqda maraqlı olan İrana qarşı region dövlətləri də mübarizə aparmalıdırlar. Şübhəsiz ki, İran nə qədər silahlanmış olsa da daxildəki milyonlarla türkdən çox narahatdır. Məhz buna görə də İran Azərbaycanın torpaqlarını azad edərək daha da güclənməsini həzm edə bilmir".

**Şəymən**

# Çox güman ki, statusla bağlı məsələ də nəzərdən keçiriləcək

## Əlisahib Hüseynov: "Naxçıvanın Bakı ilə inteqrasiyasına təkan verən bütün addımları dəstəkləyirik"

**"Naxçıvanın və naxçıvanlı soydaşlarımızın həyatında, taleyində bir dönəm bitdi, yeni bir dönəm başlayır". Bu barədə Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib. Partiya rəhbəri qeyd edib ki, Prezidentin səlahiyyətli nümayəndəsinin siyasi mühitlə heç bir əlaqəsi yoxdur: "**



Adam texnokratdır. Onun kimliyinə ötəri nəzər salsaq görərik ki, F.Nəcəfli yeni nəsil işgüzar insanlar, texnokratlar zümrəsini təmsil edir. Səlahiyyətli nümayəndəyə Naxçıvanda görəcəyi işlərlə bağlı kifayət qədər geniş vəzifələr və hüquqlar verilib. Bu vəzifələr və hüquqlar Prezident İlham Əliyevin fərmanı ilə təsdiqlənən "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə"də öz əksini tapıb. Bütün bunlar idarəetmə sahəsində köklü sistem dəyişikliyidir. Görünən budur ki, Naxçıvanın gələcək sosial-iqtisadi inkişafı üçün idarəetmənin təkmilləşdirilməsi prosesinə start verilib. Çox güman ki, yaxın vaxtlarda Naxçıvan Muxtar Respublikasının statusu ilə bağlı məsələ də nəzərdən keçiriləcək. Bir sözlə, Naxçıvanda bir çox istiqamətlər üzrə müsbət dəyişikliklər gözlənilir. Biz Milli Həmrəylik Partiyası olaraq Naxçıvanın Bakı ilə inteqrasiyasına təkan verən bütün addımları dəstəkləyirik. Naxçıvan artıq "terra inkoqnita" olmaqdan çıxıb, kontinental Azərbaycanın üzvi tərkib hissəsinə çevrilir. Xeyirli-uğurlu olsun".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği

**Həmrəylik istənilən xalqın taleyində əhəmiyyətli rol oynayır. Yaxın-uzaq tarix də sübut edir ki, milli birliyə və həmrəyliyə nail olmadan müstəqil yaşamaq imkanı azalır, xalqın gələcək inkişafı sual altına düşür. Məhz buna görədir ki, hər bir xalq həmrəylik ideyasına böyük əhəmiyyət verir və milli mənlik şüurunun formalaşmasında əvəzsiz rol oynayan həmrəyliyə can atır.**

Dünya Azərbaycanlılarının Həmrəylik Günü dünyanın hər bir nöqtəsində yaşayan azərbaycanlıların milli birliyini, həmrəyliyini simvolizə edən, eyni zamanda bu birliyi möhkəmləndirən əlamətdar tarixdir.

Ümumiyyətlə, həmrəylik ictimai ahəngdarlığı və milli özünüdərki təmin edən, milli-etnik platformada milli yaddaşı bərpa edən, milli birliyi səfərbər edən, məqsədyönlü fəaliyyəti stimullaşdıran vasitədir. Bir millətin, xalqın varlığını sürdürə bilməsi, dünya xalqları içərisində özünə layiqli yer tutması üçün milli birlik və həmrəylik həyati önəm daşıyır. Dünya Azərbaycanlılarının Həmrəyliyi bütün dünyada yaşayan azərbaycanlıların səfərbər edilməsi, konkret məqsəd ətrafında birləşdirilməsi deməkdir.

Müstəqil Azərbaycan Respublikasının yaradılması və öz mövcudluğunu qoruyub saxlaması geniş mənada, milli birliyin Azərbaycan xalqının ictimai, siyasi və mənəvi tələbatına çevrilməsi deməkdir. Milli birlik və həmrəylik şəraitində cəmiyyətdə sabitlik mövcud olur, yüksək mənəvi dəyərlər ictimai qanunauyğunluqların əsas bazasına çevrilir və bu, belə bir harmonik mühitdə dövlətin siyasi, iqtisadi və digər sistemlərinin rahat inkişafına, beləliklə də, ümumi rifahın təmin olunmasına gətirib çıxarır.

Qeyd edək ki, Həmrəylik gününün əsası 1989-cu ildə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Azərbaycan sərhədinin (SSRİ - İran sərhəddinin) dağıdılması ilə qoyulub. Uzun zaman bir-birinə həsrət qalan Azərbaycan millətinin Arazın hər iki sahilində sərhəd yürüyüşü - Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəklərini yıxması, o taylı - bu taylı millətin həftələrlə Araz qırağında gecə-gündüz birləşmək şüarı əslində azərbaycanlıların bir millət olduğunu dünya çapında bir daha canlandırmağa və Azərbaycanı bütövləşdirməyə cəhd idi. Həmrəylik günü bu birləşmək istəyinin simvolik nişanıdır. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya Azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. Sonra bu təşəbbüs mərkəzi hakimiyyətin də dəstəyini qazandı və artıq bütün azərbaycanlılar rəsmən bu günü bayram kimi qeyd edir.

Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayan Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyini, xalqı öz ətrafında birləşdirməyə qadir olduğunu nümayiş etdirdi.

Son illərdə azərbaycançılıq ideologiyası müstəqil Azərbaycanın çiçəklənməsinə və dünya azərbaycanlılarının özünüdərkinə təkan verən güclü bir amilə çevrilib. Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilk növbədə azərbaycançılıq ideologiyasına söykənir.

Ulu Öndər Heydər Əliyevin milli həmrəylik və azərbaycançılıq amalının şüurlarımızda möhkəm yer tutmasına yönəlmiş uzaqgörən siyasətini bu gün inamla davam etdirən, milli həmrəylik və diaspor fəaliyyətini daim diqqət mərkəzində saxlayan Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi fəaliyyət ardıcıl və sistemli səciyyə daşıyır. Xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsini dövlət siyasətinin mühüm istiqamətinə çevirmiş İlham Əliyev mövcud sosial-iqtisadi inkişaf şəraitində diaspor quruculuğu sahəsində dövrlə səsləşən genişmiqyaslı tədbirlər həyata keçirir. Dövlətimizin başçısı xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifəsi hesab edir, hər zaman ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəldilməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında birləşməsinə böyük töhfələr verir.

Məhz bu siyasətin məntiqi nəticəsi olaraq Prezident İlham Əliyev daim 50 milyonluq dünya azərbaycanlılarının dəstəyini alıb, onların alternativsiz namizədi və lideri olub. Bu fəaliyyətin ən ümdə cəhətləri xaricdəki azərbaycanlıların ana vətənimizin maraqları ətrafında daha sıx səfərbər olmaları və ən əsası, Azərbaycan həqiqətlərinin dünyada getdikcə yaxından eşidilməsidir.



# Zəfər bizi birləşdirdi

## Tarixi qələbəmiz həmrəyliyimizin, xalq-iqtidar birliyinin bariz nümunəsidir

**Millət vəkili Ceyhun Məmmədovun sözlərinə görə, bu gün xalqımızın birliyi, həmrəyliyi ölkəmizin inkişafını daha da sürətləndirib. Tariximizə qızıl hərflərlə yazılan İkinci Qarabağ müharibəsində qazandığımız Zəfər həmrəyliyimizin, xalq-iqtidar birliyinin bir yumruq ətrafında birləşməyinin bariz nümunəsidir**: "44 günlük Vətən müharibəsi müddətində xalqımız bir daha öz rəhbərinin müdrikliyinə və siyasi iradəsinə şahidlik etdi. Həmin günlərdə İlham Əliyevin yenilməz qətiyyəti bütün cəmiyyətimizi qələbəyə kökləndirdi. Məhz Azərbaycan Prezidentinin ortaya qoyduğu nümunə xalqımızı bu müqəddəs savaşda zəfərə apardı. Əsas məsələlərdən biri də odur ki, bu müharibədə cəmiyyət Prezident İlham Əliyevin ətrafında sıx səfərbər oldu. Bu, həm milli həmrəyliyimizin, həm də xalqımızın öz rəhbərinə olan yüksək ehtiram və inamının təcəssümü idi. Dövlətimizin başçısının əzmkarlığı, ilk gündən nümayiş etdirdiyi hərbi-siyasi qətiyyət hər bir azərbaycanlını öz rəhbərinin ətrafında daha sıx birləşdirdi. Siyasi əqidəsindən, statusundan, vəzifəsindən, milli mənsubiyyətindən və dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı 44 günlük müharibədə milli həmrəylik nümayiş etdirdi". Deputat deyib ki, azərbaycançılıq ideologiyası ölkədə dünyəvi prinsiplərə malik sivil demokratik dövlət uğrunda mübarizəni strateji məqsəd seçən Azərbaycan xalqının ideologiyasıdır. Bu ideologiyanın kökündə Azərbaycanı özünə vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi ideyası dayanır: "Bu, imperiyaya qarşı müqavimət göstərməklə formalaşan, möhkəmlənən bir istiqlal ideologiyasıdır. Azərbaycanın suverenliyi milli prinsipə əsaslanır. Ona görə ki, bu prinsip dövlətlərə və xalqlara yeni ictimai təfəkkür koordinatları diktə edir. Müstəqil Azərbaycanın vətəndaşı olmayan 40 milyon azərbaycanlı soydaşımızın, güneyli qardaşımızın azərbaycançılıq ideologiyasına əsaslanmaları onların birliyini şərtləndirəcək. Azərbaycançılıqda bir neçə şərtlər var. Bunlar maarifçilik yolu ilə inandırmaq, tarixi əsaslandırma, təşkilatlandırma, istiqamətləndirmə və yenilərin yaranmasıdır. Vətənçilik təməli üzərində bərqərar olan azərbaycançılığın tarixi qayəsi məhz öz ərazi bütövlüyünü və xalqın bütövlüyünü qorumaqdır. Azərbaycançılıq vahidliyi təbliğ edir, onu istiqamətləndirir. Bu ideologiya özündə demokratiyanın bütün tələblərini daşıyır. Güneyli-quzeyli azərbaycanlılar Azərbaycan dilini sevir, bu dili qoruyur, bu dildə danışır, bu dili bütövlüyümüzün əsas atributlarından biri olaraq qəbul edir. Azərbaycançılıq ideologiyasının təməl prinsiplərindən biri də budur. Xalqı yaşadan öz ana dilini qorumağıdır. Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyası Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu ideologiyanın təməlində Azərbaycan dili dayanır, eyni zamanda bütün millətlərin dilinə hörmət dayanır. Azərbaycan dilini bilmədən azərbaycançı olmaq mümkün deyil, həmçinin öz milli mənsubiyyətini, milli dilini də bilmədən azərbaycançı olmaq mümkün deyil. Azərbaycançılıq ideologiyası həmrəyliyin əsas prinsiplərindən biri olaraq ünsiyyət birliyini nəzərdə tutur. Bu birlik isə yalnız ana dili, Azərbaycan dili vasitəsilə reallaşa bilər".

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# "Biz tarixi torpaqlarımızda yaşayacağıq"

## "İkinci "Böyük Qayıdış" da xalqımızın taleyində ən sevincli günlərdən biri olacaq"

**"Möhtərəm cənab Prezident İlham Əliyev "Qərbi Azərbaycan icması"nın bir qrup üzvlərilə görüş keçirib. Görüşdən doğan böyük təəssüratların içərisindəyəm". Bu sözləri Prezidentlə keçirilən görüşün iştirakçısı, millət vəkili Fəzail Ağamalı deyib. Deputat bildirib ki, cənab prezident doğum gününü bir qayda olaraq ölkəmiz və xalqımız üçün ciddi və önəmli məsələlərlə əlaqələndirərək keçirdi:**

"Budəfəki doğum gününün qeyd edilməsi də bu baxımdan istisna olmadı. 2022-ci ilin avqustunda imzaladığı fərmanla yaradılan "Qərbi Azərbaycan icması"nın ofisində 27 nəfər Qərbi Azərbaycan əsilli icma üzvlərilə görüş, tarixi bir hadisə, torpaqlarımıza müstəsna bağlılığın ifadəsi kimi yaddaşlarımızda əbədiləşdi. Erməni faşistləri üzərində 44 günlük Qələbəmiz nəinki 30 il işğala məruz qalan Qarabağ və Şərqi Zəngəzuru azad etdi, eyni zamanda bu zəfər vətənimizin bütövləşməsi prosesinin başlanğıcını qoydu. Görüşdə açıq və inamlı şəkildə Qərbi Azərbaycanı tarixi torpaqlarımızın bir hissəsi kimi dəyərləndirən cənab prezident, ora qayıtmağımızın da qaçılmaz və zəruri olduğunu təkzibolunmaz arqumentlərlə bir daha əsaslandırdı. Əmin olduq ki, silah işlətmədən Ağdamda, Kəlbəcərdə, Laçında olduğu kimi diplomatik gedişlərlə Vətənimizin bir parçası kimi Qərbi Azərbaycana da qayıdacağıq, Birinci "Böyük Qayıdış" kimi, İkinci "Böyük Qayıdış" da xalqımızın taleyində ən sevincli günlərdən biri olacaq".

*Parlament üzvü qeyd edib ki, bu tarixi missiyanı həyata keçirmək üçün qarşıda olduqca vacib vəzifələrin yol xəritəsini diqqətə çatdıran cənab Prezident, təkcə daxili auditoriya üçün deyil, həm də beynəlxalq arenada fəal və genişmiqyaslı iş aparmağın vacibliyini xüsusi olaraq önə çəkdi:* "Biz artıq Böyük Yolun - bütün tarixi torpaqlarımızın əsl sahibi kimi əbədi olaraq orada yaşamaq haqqının reallaşması ərəfəsindəyik. Belə bir mükəmməl arxitekturanın müəllifi möhtərəm cənab Prezident, müzəffər Ali Baş Komandan, icraçıları isə 50 milyonluq uca millətimizdir. Bir daha Zati-Alilərinizə sonsuz təşəkkürlər, möhtərəm cənab Prezident! Atalar demişkən, niyyətimiz hara, mənzilimiz də ora! Yolumuz açıq olsun!".

**İsmayıl**

# Yerli kanallara baxanların sayı azalıb

## Ən azı 10 min nəfərin rəyi öyrənilməlidir

**Azərbaycan kanallarının ilkin reytinqi açıqlanıb. Bu barədə Audiovizual Şuranın sədri İsmət Səttarov 2022-ci ilin yekunlarına həsr olunmuş mətbuat konfransında məlumat verib. O bildirib ki, ötən həftə yerli kanallara 5 milyon 251 min adam baxıb: "Ortalama izləmə müddəti 4 saat olub. Türk kanallarına isə 3 milyon 500 min adam baxıb. Onların ortalama baxışı 2 saat olub.**

Rus kanallarına baxış sayı isə 1 milyon 550 min olub və ortalama baxış müddəti 30 dəqiqədir. 25 faiz əhali isə digər platformaları izləyib". Şura sədri deyib ki, bəzən sosial şəbəkələrdə belə fikirlər səsləndirilirdi ki, yerli kanallara baxan yoxdur: "Amma iri reklam televiziyalardadır. Bu iki məsələ üst-üstə düşmürdü. Gələn ilin əvvəlindən kanalların reytinqi Şuranın saytında elan olunacaq. İstənilən şəxs oradan hansı kanalların daha çox izlənildiyinə baxa biləcək. Burada geniş data məlumatı olacaq". Audiovizual Şuranın açıqladığı rəqəmlər reallığa nə dərəcədə yaxındır? Yerli telekanalları izləyənlər azdır, deyilə bilməz. Məlumdur ki, əhalinin müəyyən bir hissəsi, xüsusilə yaşlı nəsil, evdar xanımlar yerli telekanalları izləyir. Lakin bu izləmənin sırf işsizlikdən, yəni bekarçılıqdan qaynaqlandığı da vurğulanmalıdır. Əhalinin müəyyən qismi efirdə baxımlı proqram oldu-olmadı, televizoru işlək halda qoymağa vərdiş edib, "evdə səs olsun", deyə. Mənzillərdə televizorlar səhər saatlarından gecəyədək işlək vəziyyətdə qalır. İşığı yanır, səsi gəlir. Sakin isə bu vaxt ərzində, evin işini də görür, nahar da hazırlayır, telefonla da danışır. Bir sözlə, 5 milyondan artıq izləyicinin ciddi və daimi şəkildə yerli telekanalları izləməsi şübhəli görünür. Üstəlik, yerli telekanllara alternativ digər - xarici telekanallar və yayımlanan daha cəlbedici proqramlar, dizilər olduğu halda. Rəqəmlərin şübhə doğurmasına əhalinin böyük əksəriyyətinin smartfon aludəçiliyini də əlavə etsək, mənzərə tam başqa cür görünəcək. Nəinki asudə vaxtda, hətta nəqliyyatda da əhali (yəqin bunu asudə vaxt hesab etdiklərindən) "İPhone"da dizilər izləyir. Təbii ki, Türkiyə istehsalı diziləri. Yaşlılar da hətta smartfondan ayrılmır. Oyunlara aludə olurlar, dizi izləyirlər. Hələ tiktok aşiqlərini demirik. İnternet televiziyaları, yutub kanalları, sosial şəbəkələr günün 24 saatını zəbt edirsə, telekanallara, özü də yerlilərə baxmağa faktiki zaman qalmır. Ümumi mənzərəyə baxıldığında əhalinin böyük qisminin yerli telekanallara daha çox vaxt ayırdığı inandırıcı görünmür. Audiovizual Şura bu hesablamanı nəyə əsasən aparıb?



*"Mənzildə televizorun səhər-axşam yanması, o demək deyil ki, onu kimsə konkret izləyir"*

**Media eksperti Zeynal Məmmədli "Şərq"ə açıqlamasında heablamalarda metodoloji çatışmazlıqlar olduğunu dedi:**

- Məlumatlar yetərli deyil. Biz bilmirik izləmə sayını hesablayan cihazlar - indikatorlar nə dərəcədə dəqiqdir. Bu cihazlar nəyi hesablayır, mənzıldəki televizorun işığı neçə saat yanır, yoxsa efirdəki hər hansı proqramı izləyənlərin faktiki sayını? Mənzildə televizorun səhər-axşam yanması, hələ bu demək deyil ki, onu kimsə konkret izləyir. 10 milyonluq əhali sayı olan ölkədə ən azı 8-10 min nəfərin rəyi öyrənilməlidir ki, efirlə bağlı dəqiq mənzərə bilinsin. Amma hər dəfə görürük ki, təhlillərin aparıldığı vətəndaş sayı əhalinin ümumi sayı ilə uyğun deyil. Məlumatlar yetərsiz olduğu üçün real qiymətləndirmədə çətinlik çəkirik. Çünki rəqəmlərdə qeyri-dəqiqlik var. Orta izləmə müddəti nəyə əsasən müəyyənləşib, məlum deyil. İzləyici kateqoriyası fərqlidir. Var daimi izləyici, var vaxtaşırı izləyənlər və bir də təsadüfi - hərdən-birdən televiziyaya baxanlar. Bu kateqoriyalar üzrə də hesablama aparılmalıdır və bilinməlidir ki, daimi izləyicilər nə qədərdir. Yerli telekanalları daimi izləmə sayı azdır. Məsələn, ən reytinqli veriliş hansıdır və ona baxış sayı neçədir? Ən reytinqli verilişə baxış sayı ilə ümumi baxış sayı müqayisə edilsə, bu, efirə ümumi baxış sayının müəyyənləşdirilməsinə kömək edəcək. Ən reytinqli verilişə baxanların sayını ümumi saydan kənara çıxdıqda yerdə nə qalacaqsa, daimi izləyici sayı bu olacaq. Əlimizdə bu bilgilər olmadığı üçün konkret fikir bildirmək də çətindir.

**Z.Məmmədli qeyd etdi ki, yerli telekanallara baxış sayının xarici telekanallara baxış sayını üstələməsi texniki imkanlarla bağlıdır:**

- Hesab etmək olmaz ki, əhalinin böyük əksəriyyətinin xarici telekanallara çıxış imkanı var. Əhali daha çox internet televiziyaları, ya da yutub kanalı üzərindən xarici kanalları izləyir. Hesab edirəm ki, əhalinin xarici telekanallarda nəyi izlədiyi araşdırılsa, Türkiyə televiziyalarında da, Rusiya televiziyalarında da dizilər, seriallar önə çıxacaq. İstər Türkiyə, istərsə də Rusiya kanallarında analitik proqramlara baxanların sayı azdır. Dizilər, seriallar efir vaxtının böyük qismini zəbt etdiyindən xarici telekanalları ortalama izləmə müddəti, xüsusən Türkiyə telekanallarına, AŞ-nin açıqladığından daha böyükdür. Biz yerli telekanalları daha baxımlı etməyə çalışmalıyıq ki, televiziyalarımız xarici telekanallara uduzmasın.

**Məlahət Rzayeva**

# O kənddə "leş mafiyası" yenə fəaliyyətə başlayıb

## “AQTA-nın İctimai Şurasının 5 aya yaxındır ki, iclası keçirilmir. Belə olduğu halda təbii ki, problemlər həll edilməyəcək”



**”Uzun müddət Sabirabad rayonu ərazisində ”leş mafiyası” fəaliyyət göstərib. Bu qrup axundun, ziyalıların yaşadığı Xəlfəli kəndində uzun müddət mövcud idi. Nəhayət, oradakı adamlar 4 il bundan əvvəl həbs olundu”.**

*Bunu ”Şərq”ə Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov deyib. Onun aldığı məlumata görə, həmin adamlar yenə o kənddə bu işlə məşğul olur:* ”Budəfəki qeyri-qanuni satış da o kənddədirsə, bu, çox dəhşətli haldır. Deməli, həbs ediləndən sonra da islah olmurlar. Nədənsə, ”leş mafiyası”nın həbs olunan üzvlərinə məhkəmələr hansısa yolla bəraət qazandırır. Bu sahədə 30 ilə yaxındır ki, Azərbaycanda fəaliyyət göstərən mundar olmuş heyvanların, o cümlədən at, eşşək əti satan insanlara qarşı ən yaxşı mübarizəni Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətlərə qarşı Mübarizə İdarəsi aparır. Həmin qurum təkcə cərimə edib buraxmır, cinayət işi başlanılır, ekspertiza keçirilir. Dəfələrlə dövlət orqanlarında məsələ qaldırdıq. Lakin günlərin birində, 8 il bundan qabaq Kənd Təsərrüfatı Nazirliyinin İdarə rəisi çıxış edib. Eyyub Hüseynovun səhv etdiyini deyib. Hər bir əti satmağa icazə var. Bir şərtlə ki, ətlərin üzərində hansı heyvana aid olduğu yazılsın. Dövlət orqanının bu cür mövqeyi ilə qəti razı deyilik. Hökumət hansı ətlərin yeyilə bilmədiyi barədə qərar qəbul etməlidir. Dinimizdə də eşşək əti haramdır. 1963-cü ildə dərc olunmuş bir kitabça var. Həmin kitabçada 15 respublikadan bir tək Azərbaycanda eşşək əti yeməli kimi şərh olunur. Sonralar öyrəndik ki, bunu o vaxt ermənilər hazırlayıb. Yəni Azərbaycan xalqını vəhşi, eşşək əti yeyən bir xalq kimi təqdim etməyə çalışırlar. Sözügedən kitabça ofisimizdədir. Orada ətlərin növləri, hansı əti yemək olar və s. təlimatlar yazılıb. Ermənilərin Azərbaycanda dəstək verənləri var. Burada əlbəttə, AİB-nin günahı böyükdür. Hansı ki, bələdiyyə, sahə müvəkkili, AİB-nin nümayəndəsi var, onlara həmin eşşəyin başından xaş bişirib, yedizdirmək lazımdır. Mübarizə aparırıq ki, bunun sonu olsun, lakin müəllimlərin, ziyalıların gözü qabağında baş verir. Adını çəkdiyimiz Daxili İşlər Nazirliyinin uyğun qurumu bu sahədə daha rasional iş görə bilər. Həmin orqana əlavə səlahiyyətlər verilməlidir ki, bu işləri kökündən həll etsin. Təkcə eşşək yox, həm də xəstəlikdən mundar olmuş heyvanların da ətinin daşınılması var, Bakıya gətirirlər. Buna restoranlar, uşaq bağçaları, məktəblərdə hər birimiz rast gələ bilərik. Bunun qarşısını almaq üçün qanunlar təkmilləşdirilməli, dövlət qurumlarına əlavə səlahiyyətlər verilməli, ictimai nəzarət gücləndirilməlidir. Həmçinin AİB aktiv işləməlidir. AQTA çox təəssüf ki, problemin qarşısını almağa qadir deyil. Çünki ictimaiyyətlə fəal iş qura bilməyib. Onlar KİV-də gedən informasiyanı təqib etmir, ya da etmək istəmir. İctimaiyyətin inamını qazana bilməyib. AQTA-nın İctimai Şurasının 5 aya yaxındır ki, iclası keçirilmir. Belə olduğu halda təbii ki, problemlər həll edilməyəcək”.

*Qeyd edək ki, Sabirabadda eşşək əti satmaq istəyən şəxs saxlanılıb. Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidməti məlumat yayıb.*

**Sücayət Mehti**



## Sükanı sağ tərəfdə olan nəqliyyat vasitələrinin istifadəsinə icazə verilsə...

... Yol hərəkəti qanunvericiliyində də müəyyən dəyişikliklərə getmək lazımdır

**“Hər bir ölkənin öz yol hərəkəti qaydaları haqqında qanunları var”.**

Bunu ”Şərq”ə nəqliyyat məsələləri üzrə ekspert İlqar Hüseynli deyib. Onun sözlərinə görə, xüsusən Asiya ölkələri ilə müqayisədə bizdə yol hərəkəti qaydalarında müəyyən fərqlər mövcuddur: ”Çünki Asiya ölkələrindən Hindistan, Yaponiya və digər dövlətlərdə sükanı sağda olan nəqliyyat vasitələrindən daha çox istifadə olunur. Bu, ola bilsin, vaxtilə nəqliyyat vasitələrindəki istehsal, avtomobillərin konstruksiyasının formalaşması, tarixə köklənən bir məsələdir. Ona görə də bu ölkələrdə sağ istiqamətli yol hərəkəti qaydaları deyilən bir qanun tətbiq edilir. Sözsüz ki, ötmə qaydalarına görə daha çox sükanı solda olan nəqliyyat vasitələrindən istifadə olunur. Hətta bildiyimiz kimi, sükanı sağda olan çoxlu sayda nəqliyyat Azərbaycana gətirilərək, rekonstruksiya edilir və sükanı sola keçirilir. Bu baxımdan ölkəmizdə kütləvi şəkildə sükanı sağ tərəfdə olan nəqliyyat vasitələrinin istifadəsinə icazə verilsə, yol hərəkəti qanunvericiliyində də müəyyən dəyişikliklərə getmək lazımdır. Əks halda müəyyən risklər, qəzaların artmasına gətirib çıxara bilər”.

*Qeyd edək ki, Qazaxıstanda sükanı sağda olan avtomobillərə icazə veriləcək. Bu barədə Qazaxıstan Daxili İşlər Nazirliyinin İnzibati polis komitəsinin sədri Kaysar Sultanbayev bildirib.*

**Sücayət**



## İndi hər şey monitorinqlə aşkara çıxarılır

Qulu Məhərrəmli: ”Qanunvericiliyə əməl etmək bütün televiziya kanallarının borcudur”

**Audiovizual Şuranın sədri İsmət Səttarov ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında deyib ki, 8 televiziya kanalına xəbərdarlıq edilib. O bildirib ki, 4 dəfə efir dayandırılması sanksiyası tətbiq edilib:**

”Televiziyada aparılan monitorinq zamanı 323 pozuntu aşkar edilib ki, bunun da 184-ü reklamla bağlı olub. Radioda 78 pozuntu olub və bunun da 50-si reklamla əlaqəlidir. Hər aşkar olunan pozuntularla bağlı daxili bildiriş göndərilib. Məsələn, radiolarda Dövlət Himninin səsləndirilməsi ilə bağlı bəzən texniki problemlər də olur. Belə pozuntu üçün efirin dayandırılması nə dərəcə düzgün olar? Əgər bu hal 1 həftə ərzində təkrarlansa, o zaman ciddi sanksiya tətbiq edilə bilər”.

Belə məsələlərin ictimaiyyətə çatdırılmasının çox yaxşı bir hal olduğunu söyləyən tanınmış teletənqidçi, BDU-nun ”Multimedia və elektron kommunikasiya” kafedrasının rəhbəri Qulu Məhərrəmli deyib ki, qanunvericiliyə əməl etmək və qaydaları gözləmək bütün televiziya kanallarının borcudur: ”Əvvəllər, xüsusən də ”ATV” təcrübəsində reklamlar verilsə də, qeydiyyat aparılmırdı. Yəni müəyyən maliyyə söhbətləri var idi. Amma indi hər şey monitorinqlə aşkara çıxarılır. Audiovizual şuranın ortaya çıxardığı məsələlərə gəldikdə isə təbii ki, şura reklamın məzmununa qarışmır. Lakin onun harada, nə vaxt, necə verilməsi reklam və media haqqında qanunla tənzimlənir. Bu səbəblə də qanunvericiliyə əməl etmək və qaydaları gözləmək bütün televiziya kanallarının borcudur. Yəni onlar hansı vaxta alkoqollu, içkilərin, hansı zamanda tütün məmulatlarının reklamı veriləcəyini bilməlidir. Bunlar onsuz da müəyyən olunub və kanalların hər birində məlumatlar var. Onlar qaydalara əməl etməlidirlər. Etmədikdə isə pozuntular aşkara çıxarılır və bu barədə cəmiyyətə məlumat verilir”.

# Çin yenə də koronanın təhlükə mənbəyinə çevrilir

## “Bunun Azərbaycandakı vəziyyətə təsiri o halda olardı ki, virusun xüsusiyyətlərində hansısa dəyişiklik baş vermiş olsun”



**Koronavirus Çində yenidən tüğyan edir. Pekinin illərdir həyata keçirdiyi ”sıfır COVID siyasəti”, sərt qapanmalar nəticə verməyib. Çində gündə milyonlarla insan COVID-ə yoluxur, say o qədər artıb ki, Pekin gündəlik xəstə sayını elan etməyəcəyini açıqlayıb. Bəzi mənbələrə görə, Çində son 20 gün ərzində təxminən 250 milyon insan ”COVID-ə yoluxub. COVID paytaxt Pekin və Şanxayda daha sürətlə yayılıb.**

Xəstəxanalar doludur. CNN-nin xəbərlərinə görə, Çində ölənlərin sayı da artıb. Çinli virusoloqların sözlərinə görə, hazırkı COVID ilkin ştamdan fərqlidir.

Çində koronavirusun yenidən geniş yayılması qonşu ölkələri qorxudub. Hindistan hökuməti əhalini diqqətli olmağa çağırıb.

İddialara əsasən, növbəti aylarda COVID-19 yenidən dünyanı cənginə alacaq, bu səbəblə karantin qaydalarının sərtləşdirilməsi qaçılmaz olacaq. Ümumdünya Səhiyyə Təşkilatından isə bildirilib ki, pandemiya hələ bitməyib, yoluxma və ölüm hallarının artması istisna deyil.

Qeyd edək ki, COVID-19-a yoluxma hallarının artması səbəbindən Çinin ali səhiyyə qurumu gündəlik məlumatların dərc edilməsini dayandırır. Çünki davam edən pandemiyada itkilərin sayı hökumət orqanlarının təqdim etdiyi rəsmi rəqəmlərdən çoxdur. CNN telekanalı xəbər verir ki, Çin Milli Səhiyyə Komissiyasının (NHC) məlumatına görə, xəstəliyin yayılması haqqında müvafiq informasiya NHC tərəfindən idarə olunan Çin CDC altdepartamenti tərəfindən dərc ediləcək. Bu qərar Çində məhdudiyyətlərin kəskin yumşaldılmasından sonra ölkədə koronavirus dalğasının görünməmiş dərəcədə yayılması ilə bağlıdır.

Məlumatda Çin CDC-nin COVID-19 hesabatlarını nə dərəcədə tez-tez dərc edəcəyi göstərilmir. Ənənəvi olaraq Çin CDC ölkə qanunvericiliyi ilə idarə olunan bütün infeksiyalar (mövsümi qripdən tutmuş hepatit B və taunadək) haqqında məlumatı ayda bir dəfə dərc edir.

Bu ayın əvvəlində Çin COVID-19 ilə bağlı tətbiq edilən məhdudiyyətləri kəskin şəkildə yumşaltdığı üçün virusun yayılma miqyası haqqında dəqiq məlumat daxil olmayıb. Hazırda sakinlər infeksiyanın aşkarlanması üçün ekspres-testdən istifadə edir və pozitiv nəticə barədə məlumat verməyə borclu deyillər.

Yerli infeksionistlər isə təşvişə düşməyə səbəb olmadığını deyib. Onların fikrincə, Çində yoluxma artsa belə, COVID-19 pandemiyası tarixə qovuşub.

**İnfeksionist Nicat Əzimlinin fikrincə, COVID-19-a görə narahatlıq keçirməyə dəyməz. İnsanlar rahat həyatına davam etməlidirlər:** ”Təqdim olunan yoluxma sayının dinamikasına və digər göstəricilərə baxanda görərik ki, hazırkı vəziyyətdə narahatlığa əsas yoxdur. Eləcə də həkim olaraq şəxsi müşahidələrimizlə bunu təsdiqləyə bilərik. Tənəffüs orqanlarının viruslu infeksion xəstəliklərinin sayının artması mövsümlə əlaqədardır və bunu təbii qəbul etmək lazımdır. Bakı kimi əhalinin nisbətən sıx olduğu şəhərlərdə mövsümi qripə yoluxma halları koronavirus kimi artır. Bu, insanlarda təşvişə səbəb olmamalıdır”.

Koronavirus və qriplə bağlı gündəmdə olan xəbərlərə gəldikdə isə infeksionist deyib ki, Çin kimi əhalinin ultra-sıx olduğu ölkələrdə yoluxmaların daha sürətlə artması gözləniləndir: ”Bunun Azərbaycandakı vəziyyətə təsiri o halda olardı ki, virusun xüsusiyyətlərində hansısa dəyişiklik baş vermiş olsun. Lakin hazırda bu haqda narahat olunacaq durum yoxdur”.

**Şəymən**



## Nazilə Fatimədən 50 min istəyir

**Rəqqasə Fatimə Fətəliyeva ilə şair Nazilə Səfərli arasında məhkəmə prosesi davam edir.**

Axşam.az-ın əldə etdiyi məlumata görə Nazilə Fatimədən 50 min manat təzminat istəyir. O, bir neçə ay əvvəl məhkəməyə ərizə verib, Fatimənin üzr istəməsini və şərəf-ləyaqətini təhqir etdiyi üçün təzminat ödəməsini istəyir.

*Qeyd edək ki, rəqqasə ilə şairə arasındakı qalmaqala Nazilənin sosial şəbəkədə yazdığı ”Bir rəqqasə reklam etdiyim məkanların birinə zəng edib qışqıraraq deyib ki, bizi dəvət etmirsiniz, kobud şairəni reklama dəvət edirsiniz. Əzizim, vaxtında bizim başımızda böyüyümüz olub. Stolların üstündə göbək rəqsi etməyə icazə verməyiblər deyə, incə qala bilməmişik, kobud qalmışıq. Demək istərdim ki, ağır ol, amma ağır olsan dingildədiyin masalar qırılar. Bağışla” sözlər səbəb olub. Ondan sonra Fatimə bu sözlərin ona aid olduğunu söyləyib.*

# Pensiyalara amnistiya tətbiq olunacaq

## Yeni dəyişikliklərin gələn aydan qüvvəyə minəcəyi gözlənilir




**Pensiyalarda yeni amnistiya tətbiq olunacaq. Bu məsələ Milli Məclisin Əmək və Sosial Siyasət komitəsinin növbəti iclasında ”Əmək pensiyaları haqqında” qanuna dəyişikliklər zamanı müzakirə olunub.**

Dəyişikliklər artıq ödənilmiş əmək pensiyasının və əmək pensiyasına əlavənin məbləğinin tutulmasında müddətli amnistiyanın tətbiqini nəzərdə tutur. Qaydalara əsasən, bu məbləğ əmək pensiyaçısının razılığı ilə, yaxud məhkəmə qaydasında tutulur. Mövcud qanunvericiliyə əsasən, bu zaman müddət müəyyənləşdirilmədən artıq məbləğin geri ödənilməsi həyata keçirilirdi. Amma yeni dəyişikliklərə əsasən, yalnız son 3 il üçün ödənilmiş artıq məbləğ geri tutulacaq.

Millət vəkili Vüqar Bayramov bildirib ki, əgər pensiyaçıya fərqli səbəblərdən 2020-ci ildən əvvəl artıq ödəniş olubsa, yeni dəyişikliklərə əsasən, həmin ödəniş geri istənilməyəcək. Deputatın sözlərinə görə, dəyişikliklər 2020-ci ildən əvvəlki dövrə amnistiyanın verilməsini nəzərdə tutur: ”Bu isə pensiyaçıların sosial təminatı baxımından vacib addım hesab edilməlidir. Eyni zamanda geri ödəniləcək hər ay əmək pensiyaçısına ödənilməli olan məbləğin 10 faizindən az, 20 faizindən artıq ola bilməz. Bu məhdudlaşdırmada da məqsəd pensiyaçının sosial vəziyyətini pisləşdirməmək məqsədi daşıyır. Bütövlükdə, əmək pensiyaları üzrə artıq ödənilən vəsaitlərin böyük hissəsi 2020-ci ildən əvvəlki dövrü əhatə etdiyi üçün yeni dəyişikliklər böyük məbləğdə vəsaitin bağışlanmasına və amnistiya edilməsinə imkan verəcək. Yeni dəyişikliklərin gələn aydan qüvvəyə minəcəyi gözlənilir”.

**İsmayıl**

**Elan**

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının tələbəsi Ağazadə Nurcan Nurəddin qızına məxsus N:TİM22-41 saylı tələbə bileti itdiyi üçün eibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3809



## Meriç çayında nəhəng balıq tutuldu

**Ədirnədən keçən Meriç çayında uzunluğu 2 metr, çəkisi 60 kiloqram olan yayın balığı tutulub. ”Şərq” türk mediasına istinadən xəbər verir ki, yayın balığını görəndə məəttəl qalıblar.**

Nəhəng balığı çətinliklə sahilə çıxaran balıqçılar tutduqları nəhəng balığın 60 kiloqram olduğunu bildiriblər.

Balıqçılar tutduqları nəhəng yayın balığını Ədirnənin Üyüklütatar kəndinə gətiriblər.

Yoldan keçərkən nəhəng balığı görən vətəndaşlar təəccüblərini gizlədə bilməyiblər və balığa yaxınlaşıb şəkil çəkdiriblər.

**Turan**

## Səudiyyə Ərəbistanında yeni qadağa

Məktəblərdə imtahan zallarına çadra ilə daxil olmaq qadağan edildi



**Səudiyyə Ərəbistanı hökuməti qız şagirdlərin məktəblərdə imtahan zallarına çadra ilə daxil olmalarının qadağan edildiyini açıqlayıb.**

Bakupost.az xəbər verir ki, bu haqda Səudiyyə Ərəbistanı Təhsil və Tədris Qiymətləndirmə Komissiyası sənəd imzalayıb.

Şagirdlərdən imtahan binalarına yalnız məktəbli formasında daxil olmaq və ictimai ədəb-ərkan qaydalarına riayət etmək tələb olunub.

*Qeyd edək ki, 2018-ci ildə verilmiş qərarla Səudiyyə Ərəbistanında çadra geyinmək məcburi deyil.*







# Fabrik kimi məktəb

## Şagirdlər həm təhsil alır, həm də pul qazanır

**Tükiyənin Bursa bölgəsində Hamidiyə Məslək və Texnologiya Anadolu liseyində təsis edildiyi vaxtdan - 1891-ci ildən günümüzədək şagirdlərə təhsil verməklə yanaşı, qazanc əldə etmələrinə də şərait yaradılıb.**

”Şərq” ”NTV.com.tr”yə istinadən bildirir ki, lisey böyük təsərrüfata malikdir. Təsərrüfatda çalışan şagirdlər həm toyuq-cücə saxlayıb yumurtaları satmaqla, həm də bostanda yetişdirdikləri tərəvəzləri satışa çıxarmaqla qazanc əldə edirlər. Ümumlikdə liseyin təsərrüfatında quru ərzaqlar, sirkə, pomidor pastası, tarhana (un və süd qarışıqlı quru qida), əriştə, yumurta, meyvə-tərəvəz, zeytun yağı, çiçək yağı, ətirli yağlar v bəzək kolları da daxil 102 növdə məhsul yetişdirilir. Satışdan 1 milyon lirə əlavə gəlir əldə edilir, şagirdlər də 400-1000 lirə qazanıb ehtiyaclarını təmin edirlər. Liseydə 45 müəllim, 600 şagird var. Liseyin təyinatı ”qida”, ”qastromoniya”, ”laboratoriya xidməti”, ”qida texnologiyası”, ”heyvan sağlamlığı və kənd təsərrüfatı” olmaqla 5 istiqamət üzrədir. Liseyin öz təsərrüfatına sahib olması, şagirdlərin nəzəri biliklərini praktiki baxımdan həyata keçirmələrinə səbəb olur. Şagirdlər təkcə biliklərə yiyələnmir, həm də təsərrüfatla məşğul olmaq, əkinçilik, bitkiçilik, heyvandarlığın sirlərini əyani öyrənirlər. Məsələn, heyvandarlıq bölümünün şagirdləri yumurta əldə etməklə məşğuldur. Bəslədikləri toyuqların yumurtalarını toplayır, qablaşdırıb satışa çıxarırlar. Liseyin təsərrüfatında 3 min toyuq bəslənir, onlardan da hər gün təxminən 2 min 500 yumurta əldə edilir. Satışdan gələn gəlirlə həm liseyin tələbləri qarşılanır, həm də şagirdlər ailələrinə maddi dəstək vermiş olurlar. Şagirdlər sinifdən təsərrüfata, oradan da bazaradək hər sahədə yer alır. Məhsulun yetişdirilməsində iştirak edən şagirdlər qablaşdırmanı da özləri icra edir, məhsulun ünvanlara çatdırılmasında da iştirak edirlər. Liseyin 350 hektar ərazisində müxtəlif tərəvəzlər - kələm, kərəviz, soğan, aruqula, kahı hər cür tərəvəz yetişdirilir. Mövsümə görə arpa, yulaf da əkilir. Həmçinin bəzək bitkiləri də əkilir və satışa çıxarılır.

**Məlahət**







## Corcina bu dəfə Ronaldoya 513 minlik avtomobil aldı



**Dünya şöhrətli futbolçu Kriştiano Ronaldonun sevgilisi Corcina Rodriges ona növbəti dəfə lüks avtomobil bağışlayıb.**

**Axşam.az xəbər verir ki, bu barədə Corcina instaqram hesabında paylaşım edib. O, Ronaldoya Yeni il bayramı münasibəti ilə ”Rolls Royce” alıb. Avtomobilin qiyməti-nin 250 funt-sterliq (513 min 109 manat) olduğu deyilib.**

**Ronaldo da öz növbəsində ”Təşəkkürlər, sevgilim” sözləri ilə sosial media hesabında Corcinaya təşəkkürünü bildirib.**

***Qeyd edək ki, Corcina ad günündə də Ronaldoya dəyəri 200 min dollardan çox olan ”Cadillac Escalad” markalı avtomobil hədiyyə etmişdi.***

## Messinin həyat yoldaşı rəqs etdi



**Argentina yığmasının 35 yaşlı hücumçusu, dünya çempionu Lionel Messi Milad bayramını ailəsi ilə birlikdə vətəni Rosarioda keçirir.**

**Lent.az xəbər verir ki, ulduz futbolçu Messi şəxsi ”Instagram” hesabında bayram günündən paylaşım edib.**

**Leo həyat yoldaşı Antonella Rucozzonun rəqsini paylaşaraq onu etiketləyib. Bundan başqa, Rucozzo isə ailəvi şəkillərini qoyaraq hər kəsin bayramını təbrik edib.**

***Qeyd edək ki, hazırda oyunçusu olduğu PSJ futbol komandası dünya çempionatından sonra Messiyə 10 günlük məzuniyyət verib.***

## Qorbaçovun qonşusu Barbara Buşun ona göndərdiyi məktubu satır




Merry Christmas and Happy New Year
Peace on Earth - Goodwill to All
Barbara Bush G Bush

**Moskvada Mixail Qorbaçovun keçmiş qonşusu Barbara Buşun 2003-cü ildə baş katibə göndərdiyi açıqcanı satır.**

**Oxu.az xəbər verir ki, məlumata görə, 2003-cü ildə Barbara Buşun Mixail Qorbaçova göndərdiyi açıqca qonşunun ünvanına çatdırılıb. Ailə məktubu özləri üçün saxlamağa qərar verib. Onlar uzun illər açıqcanı saxlayıblar, lakin ailənin başçısı M.Qorbaçovun ölümündən sonra məktubun satışı ilə bağlı elan verib. Satıcı qiyməti 500 min rubl (təxminən 12 min manat - red.) təyin edib.**



# Firon 3200 ildən sonra canlandırıldı

## 200-ə yaxın arvadı və yüzdən çox uşağı olub





**Qədim Misirin ən güclü fironu II Ramzesin üzü yeni elmi araşdırma çərçivəsində 3200 ildən sonra ilk dəfə canlandırılıb.**

Qeyd edək ki, 200-ə yaxın arvadı və yüzdən çox uşağı olan II Ramzes Misiri genişləndirməsi və tikdirdiyi məbədləri ilə tanınır.

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, Misir və İngiltərə alimləri II Ramzesin üzünü rekonstruksiya etmək üçün kəllə sümüyünün 3D modelindən istifadə edərək, fironun ölümü zamanı onun necə göründüyünü aşkar etmək üçün əməkdaşlıq ediblər. Tədqiqatçılar daha sonra qocalma prosesini tərsinə çevirərək, gücünün zirvəsində II Ramzesin üzünü açmaq üçün yarım əsr geriyə qayıdıblar. Nəticə əsl kəllə sümüyünün kompüter tomoqrafiyası əsasında fironun ilk ”elmi üz rekonstruksiyası” olub.

Kəllə sümüyünün 3D modelini yaradan Qahirə Universitetindən Sahar Saleem, nəticənin ”çox yaraşıqlı” bir monarxı ortaya çıxardığını söyləyib.

”Yenidən qurulmuş üz II Ramzesin çıxıntılı burnu və güclü çənəsi olan çox yaraşıqlı bir misirli olduğunu ortaya qoydu”, - deyib Saleem. Böyük Ramzes kimi tanınan II. Ramzes eramızdan əvvəl 13-cü əsrdə Qədim Misiri idarə edib. Onun ailəsi Akhenatonun hakimiyyətindən bir neçə onilliklər sonra hakimiyyətə gəlib. II Ramzes Suriyanın cənubundakı üsyanları yatıraraq və Kadeş döyüşündə hetlərlə vuruşaraq Misirin gücünü bərpa edib. Qaliley və Amor şəhərlərini tutub, lakin hetləri məğlub edə bilmədiyi üçün eramızdan əvvəl 1258-ci ildə sülh müqaviləsini qəbul edib. Ramzesin gücünü həm də onun gördüyü tikintinin miqdarı ilə ölçmək olar. O, Nil deltasında əvvəllər hərbi ekspedisiyalar üçün baza kimi bir şəhər qurub və atasının başladığı Osiris məbədinin tikintisinə yenidən başlayıb. Karnakdakı məbədi əlavə edib və Luksorda atası üçün dəfn məbədini tamamlayıb. Nubiyada altı məbəd tikib, ən məşhuru Əbu Simbeldəki məbədlərdir. Digər tərəfdən, təxminən 90 il ömür sürdüyü təxmin edilən II Ramzes uzun həyatı boyunca dəfələrlə evlənib. Fironun 200-dən çox arvadı və 100-dən çox uşağı olub və onların əksəriyyəti sağ qalıb. İlk arvadı Nefertari idi və ona Əbu Simbeldəki məbədlərdən birini həsr etmişdi. Bununla belə, II Ramzesin bəzi evliliklərində diplomatiya da rol oynayıb.

**Turan**

## Selfi çəkdirmək istəyərkən öldü



**Türkiyədə bir rusiyalı selfi çəkdirmək istəyərkən ölüb.**

Milli.Az bildirir ki, bu barədə yerli ”Pusuxaber” nəşri məlumat yayıb.

Hadisə dekabrın 25-də baş verib. Sərik şəhərində qalan Rusiya vətəndaşları - 35 yaşlı Stanislav İvançenko, 54 yaşlı Nataliya Filimonova və 34 yaşlı Anna Filimonova Antalyanın Köprülü Kanyonuna gəzintiyə çıxıblar. Çəkiliş zamanı kişi müvazinətini itirərək 35 metrlik qayadan yıxılıb.

*Qeyd olunub ki, İvançenko yıxıldıqdan dərhal sonra dünyasını dəyişib. Hadisə yerinə baxış keçirildikdən sonra meyit yarılmaq üçün Məhkəmə Tibb İnstitutunun morquna aparılıb. Hadisə ilə bağlı araşdırma aparılır.*

## Şəhər keçilməz olub

Buffalonun tarixində ən dağıdıcı qasırğa yaşanıb



**ABŞ-ın Nyu-York ştatında yerləşən Buffalo şəhəri öz tarixinin ən dağıdıcı qasırğası ilə üz-üzə qalıb.**

Azərtac ABŞ mediasına istinadla xəbər verir ki, bu barədə regionun qubernatoru Keti Hokul deyib.

”Boz müharibə aparırıq. Bu, ana təbiətlə müharibədir. O, mümkün olan hər vasitə ilə bizi vurur. Bu, indiyə qədər bir çox döyüşlərdən və fırtınalardan keçən Buffalonun uzun tarixinə ən dağıdıcı qasırğa kimi daxil olacaq”, - deyə qubernator bildirib.

Görünməmiş qar fırtınası səbəbindən şəhərin keçilməz vəziyyətə düşdüyünü deyən qubernatorun sözlərinə görə, təbii fəlakət yeddi nəfərin həyatına son qoyub. Onların bəziləri avtomobillərində donaraq ölüb. Təcili xidmətlər yollarda qalan yüzlərlə insana yardım edib. Hakimiyyət orqanları ölənlərin sayının artacağından ehtiyatlanır.

Təbii fəlakətin nəticələri ilə mübarizə aparmaq üçün regiona Milli Qvardiyanın əsgərləri cəlb olunub. Ştatın bir sıra rayonlarında yollar və avtomagistrallar bağlanıb, sakinlərə evdə qalmaq və imkan daxilində nəqliyyatdan istifadə etməmək tövsiyə olunub.

ABŞ və Kanadanın böyük hissəsi ötən həftə şiddətli şaxtaların, güclü külək və qarlı havanın təsirinə məruz qalıb. NBC telekanalının məlumatına görə, çovğun Birləşmiş Ştatlarda azı 46 nəfərin ölümünə səbəb olub. Həmçinin həftəsonu ABŞ-da kəskin hava şəraiti ilə əlaqədar 5 mindən çox aviareys təxirə salınıb.